Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 167 (7894) BAZAR, 29 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





Prezident İlham ƏLİYEV:
"Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir"

## Aqrar sektorda müasir texnikanın tətbiqi günün tələbidir

**Azərbaycanın qeyri-neft sektorunda kənd təsərrüfatı ərzaq təhlükəsizliyini təmin edən sahə kimi xüsusi əhəmiyyət kəsb edir. Bu sahə coğrafiyasına və əhalinin məşğulluğuna görə də əvəzsizdir. Digər tərəfdən, regionların sosial-iqtisadi inkişafında kənd təsərrüfatı önəmli rol oynayır. Məhz bu üç səbəbə görə son dövrlər ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyi daha da artıb.**

Bu gün aqrar sektorun inkişafı müasir texnika və texnologiyaların tətbiqindən keçir. Əvvəla, yeni texnika və texnologiyalar kənd təsərrüfatı məhsulları istehsalında heç də az tələb olunmayan əl əməyini yüngülləşdirir. İkincisi də, onların tətbiqi məhsuldarlığı xeyli artırır ki, bu da çox mühüm amildir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında kənd təsərrüfatının modern texnika ilə təchizatının əhəmiyyətini xüsusi vurğulamışdır: "Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Son illər kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texniki parkımızı tamamilə yeniləmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam edəcək. Özü də qeyd etməliyəm ki, dünyanın aparıcı şirkətlərinin texnikası bu gün bizim tarlalarımızda fəaliyyət göstərir və fermerlər də bu texnikadan çox razıdırlar. Bu məqsədlə böyük vəsait nəzərdə tutulur. Burada qeyd olundu ki, təkcə bu il 160 milyon manat dəyərində 5 mindən çox texnika alınacaq, keçən il isə 10 min texnika alınmışdır". Göründüyü kimi, dövlət başçısı da hazırda ölkənin aqrar sektorunun qarşısında duran əsas vəzifənin bu sahəni yüksək texnoloji sahəyə çevirmək olduğunu söyləmişdir.

Bu gün həm aqrotexniki, həm də su ilə təminat texnologiyalarının Azərbaycana gətirilməsi vacib məsələ kimi qarşıda durur. Dünyada elə müasir suvarma sistemləri var ki, hər bir qarış torpaqdan maksimum səmərə ilə istifadə etməyə imkan verir. Ölkəmizin isə su ehtiyatları məhduddur. Ümumiyyətlə, istər içməli, istərsə də suvarma su ehtiyatları dünyada getdikcə tükənir. Təsadüfi deyil ki, bu yay Avropadan Yaponiyaya qədər bütün ölkələrdə sudan qənaətlə istifadə edilməsinə dövlət nəzarəti gücləndirilmiş, israfçılığa qarşı tətbiq edilən cəzalar sərtləşdirilmişdir. Bol su ehtiyatları olan Kanadada da sudan qənaətlə istifadəyə ciddi dövlət nəzarəti var və bu sahədə qanunu pozanlara qarşı sərt cəza tədbirləri görülür. Ölkəmiz də sudan qənaətlə istifadə etmək üçün cəza tədbirlərini sərtləşdirməklə yanaşı, sudan səmərəli istifadə edən texnologiyalara üstünlük verməyə məcburdur. Səbəb, qeyd etdiyimiz kimi, su ehtiyatlarımızın məhdud olmasıdır.

Prezident İlham Əliyev sözügedən iclasda bu məsələ ilə bağlı bildirmişdir ki, hər bir qarış torpaqdan səmərəli istifadə etməliyik. Kənd təsərrüfatı müəyyən dövrdən sonra ancaq intensiv yolla inkişaf edə bilər. Ancaq bu gün böyük miqdarda meliorasiya tədbirləri görülür ki, suvarılmayan torpaqlara su gətirilsin. Odur ki, növbəti hədəf intensiv üsullardan istifadə edərək hər qarış torpaqdan yüksək məhsuldarlıq götürməkdir. Bu, kənd təsərrüfatının qarşısında duran əsas vəzifədir.

Aqrar sektorun inkişafının bir yolu da aqroparkların yaradılmasıdır. Çünki müasir texnika və texnologiyalar məhz aqroparklarda geniş tətbiq edilir. Onun logistik, satış və emal imkanları geniş olur. Üstəlik, müasir texnika və texnologiyalardan istifadə yüksək məhsuldarlığa təminat verir, əmək resurslarından səmərəli istifadə etmək imkanı yaranır. Elə buna görə də Azərbaycanda aqroparkların yaradılmasına dövlət tərəfindən hərtərəfli dəstək verilir. İndiyədək təkcə aqroparkların yaradılması üçün infrastruktur layihələrinə 200 milyon manatdan çox investisiya qoyulub, sahibkarlara 100 milyon manatdan çox güzəştli şərtlərlə kredit verilib.

Ardı 2-ci səh.

## Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

Əlahəzrət!

Əziz qardaşım!

Milli bayramınız - Taxt-Tac Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Mərakeş münasibətlərinin hərtərəfli inkişafı və daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2018-ci il*

## Qeyri-neft sənayesinin inkişafı iqtisadi sabitliyin qarantıdır

Qeyri-neft sektorunun inkişafı siyasətinin əsas məqsədi ölkənin neft asılılığını minimuma endirməkdir. Hazırda ölkə üzrə ixracdan gələn gəlirlərin çoxu enerji daşıyıcılarının satışından əldə edilir. Dünya bazarında isə neftin qiyməti sabit olmur. Yüksək qiymətə satıldığı kimi, qəfil də ucuzlaşır ki, bu da maliyyə sabitliyinə ciddi təsir göstərir. Məhz bu səbəbdən dövlət başçısının sənayeləşmə siyasəti xeyli vaxtdır ölkənin iqtisadi inkişafının əsas istiqamətlərindən biri elan olunub.

Nəticədə artıq bir çox qeyri-neft sənaye məhsulları ölkəmizdə istehsal edilir və belə məhsulların xaricdən idxalı, demək olar ki, dayandırılıb. Müsbət cəhət odur ki, bu cür məhsulların idxalının azalması ilə yanaşı, onun ixracı artıb. Düzdür, hələlik bu, istənilən həddə çatmayıb. Lakin buna doğru atılan addımlar müsbət nəticəsiz də qalmır.

Azərbaycanda sənayeləşmə müxtəlif yollarla həyata keçirilir. Yeni müəssisələrin fəaliyyətə başlaması ilə bərabər, sənaye parklarının və məhəllələrinin yaradılması da geniş vüsət alıb. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə iqtisadiyyatında qeyri-neft sənayesinin inkişafına böyük önəm verdiyini vurğulayaraq demişdir: "Sənaye parklarında rezidentlərin sayı 50-yə yaxındır. Sənaye parklarının yaradılması da öz səmərəliliyini göstərmişdir. Əgər biz bu parkları yaratmasaydıq, orada investorlara yaxşı güzəştli şərtlər yaratmasaydıq, indi 50-yə yaxın rezident olmazdı. Bu gün bu parklarda icra edilmiş və icra ediləcək layihələrin ümumi dəyəri 3,6 milyard dollardır".

İndiyədək sənaye parklarına 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalda 11 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə 1,1 milyard dollardan çox investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sumqayıt Kimya Sənaye Parkında 7 müəssisə fəaliyyət göstərir. Cari ilin sonunadək isə daha 7 müəssisə istifadəyə veriləcək.

Balaxanı Sənaye Parkında fəaliyyət göstərən 5 müəssisədə 400-ə yaxın işçi çalışır. İkinci mərhələdə daha 5 istehsal sahəsinin tikintisinə başlanılacaq. Bununla yanaşı, Pirallahı Sənaye Parkında ümumi dəyəri 100 milyon dollar olan əczaçılıq və şpris istehsalı müəssisələri yaradılır. İlin sonunda istifadəyə verilməsi nəzərdə tutulan şpris zavodunun daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanları da olacaq.

Onu da qeyd edək ki, ölkədə sənaye parkları yaradılarkən elmi təhlillər aparılır, mövcud tələbat və xammal mənbəyi nəzərə alınır. Bu, texnoparkların yerləşdiyi ərazilərdə istehsal edilən məhsullarda özünü aydın şəkildə büruzə verir. Məsələn, Sumqayıtda kimya məhsullarının istehsal edilməsi daha münasibdir. Çünki bu şəhər Bakıya yaxındır, texnoparkdakı müəssisələrdə xammal kimi neft məhsullarından istifadə edilir. Mingəçevir Sənaye Parkına isə istehsal etdiyi məhsulların xammalı ətraf bölgələrdən gətirilir. Burada xammal əsasən kənd təsərrüfatı məhsullarıdır.

Ardı 2-ci səh.



## İtaliya şirkətləri Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir

**Bir neçə gün əvvəl Bakıda İtaliya və Azərbaycan prezidentlərinin iştirakı ilə keçirilən biznes forumu iki ölkə arasındakı iqtisadi əlaqələrin yeni mərhələsi kimi dəyərləndirilə bilər. Daha geniş anlamda isə Azərbaycan bu tədbirlə bir daha dünyaya bütün sahələrdə iqtisadi əməkdaşlığa açıq olduğunu, xarici sərmayədarlar üçün ölkəmizdə sağlam investisiya mühitinin yaradıldığını əyani şəkildə təsdiqlədi.**

Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-İtaliya biznes forumunda hər iki dövlətin rəsmi şəxsləri ilə yanaşı, enerji, tikinti, dizayn və memarlıq, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, logistika, mühəndislik, sənaye sahələrində fəaliyyət göstərən 350-dək iş adamı iştirak edib. Belə geniş tərkibdə iqtisadiyyatın çoxşaxəli sahələrini əhatə edən yerli və xarici sahibkarların bir araya gəlməsi hər iki tərəf üçün daha yeni və daha faydalı iqtisadi inkişaf modelini qurmağa imkan verib.

Biz ayrı-ayrı dillərdə danışsaq da, ayrı-ayrı mədəniyyətlərin və tarixlərin sahibi olsaq da, ümumi cəhətlərimiz, orta dəyərlərimiz, qədim əlaqələrimiz mövcuddur. Bu əlaqələr İpək yolundan başlayıb. İtalyanlar da, azərbaycanlılar da qədim əfsanələrə söykənən, ənənələrə dəyər verən xalqlardır. İtalyanlar öz antik mədəniyyətlərindən nə qədər zövq alırlarsa, biz də zəngin folklorumuzla bir o qədər öyünürük.

Ardı 2-ci səh.

## "Cənub qaz dəhlizi"nin başlanğıc nöqtəsi

**Qədim neft diyarı Azərbaycanın qısa müddətdə həm də qaz ixrac edən ölkə kimi tanınması "Şahdəniz"in sayəsində mümkün olub. Bu, son dövrlərdə dünyada kəşf olunmuş ən böyük və zəngin yataqlardan biridir. Bakıdan təxminən 70 kilometr cənubda, açıq dənizdə yerləşən "Şahdəniz" 1 trilyon kubmetrdən çox qaz və 2 milyard barel kondensat ehtiyatlarına malikdir.**



"Şahdəniz"in sərvəti o qədər böyükdür ki, onu iki mərhələdə hasil etmək qərara alınıb. Mütəxəssislər hətta "Şahdəniz-3"ün olacağını da istisna etmirlər.

Yatağın ərazisi də genişdir. Belə ki, o, təxminən 860 kvadratkilometr sahəni əhatə edir. Burada "Şahdəniz-1" çərçivəsində bir, "Şahdəniz-2" çərçivəsində isə iki platforma quraşdırılıb. "Şahdəniz-2"nin platformaları bir-birinə körpü vasitəsilə birləşdirilib.

"Şahdəniz"in işlənməsinin ilk mərhələsi 2006-cı ildən hasilata başlayıb. Hazırda bu mərhələ çərçivəsində ildə 10 milyard kubmetr qaz hasil edilir, Azərbaycan, Gürcüstan və Türkiyədəki istehlakçılara göndərilir. İndiyədək yataqdan ümumilikdə 91 milyard standart kubmetrdən çox qaz və təxminən 23 milyon ton kondensat hasil edilib.

"Şahdəniz-2"nin isə ən yüksək sabit hasilat dövründə ildə 16 milyard kubmetr qaz verəcəyi gözlənilir. Beləliklə, "Şahdəniz"in ümumi hasilatının birinci mərhələ də daxil olmaqla ildə 26 milyard kubmetr qaz və gündəlik 120 min barel kondensat həcminə çatdırılacağı gözlənilir.

Layihənin əməliyyatçısı BP şirkəti indiyədək kəşf etdiyi ən böyük qaz yatağının "Şahdəniz" olduğunu bildirib. Bu layihədə BP (28,8 faiz), TPAO (19 faiz), AzŞD (10 faiz), "Cənub qaz dəhlizi" Apstrim (6,7 faiz), "Petronas" (15,5 faiz), "LUKoyl" (10 faiz), NİKO (10 faiz) şirkətləri konsorsium təşkil ediblər.

Ardı 2-ci səh.

## *Beynəlxalq yay məktəbləri:* 20-dək xarici ölkə universitetinin tələbələri burada bir araya gəlir

Yay məktəbləri son illər müxtəlif ölkələrdə uşaq və gəncləri bir araya gətirən ümumi vasitəyə çevrilib. Əvvəllər virtual xarakter daşıyan bu vacib məsələ artıq həyat devizi olub. Çünki müxtəlif cəmiyyətlərdə bəşəri düşüncəli gəncliyi bir araya gətirmək artıq vacib faktor kimi özünü göstərməkdədir.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan, düşünülmüş multikulturalizm siyasəti olmadan inkişaf edə bilməz. Bunun bariz nümunələrindən biri Azərbaycandır. Çünki burada milli mədəniyyətə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri qarşılıqlı və tam bərabərhüquqlu yaşayır, öz bilik və bacarıqlarını həm nümayiş, həm də inkişaf etdirirlər. Multikulturalizmdən imtina etmək isə yaxşı heç nə vəd etmir. Bu, bütün dünyada anlaşılmazlığa, müxtəlif fobiya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yol olardı.

Azərbaycanın dünyada multikulturalizm mərkəzi kimi tanınması, mövcud multikultural dəyərlərlə əlaqədar layihələrin gerçəkləşdirilməsi prioritet kimi qəbul edilib. Xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisi layihəsinin həyata keçirilməsi məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Avropanın və regionun bir sıra qabaqcıl ali məktəbləri ilə ikitərəfli danışıqlar aparıb. Bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı əməkdaşlıq protokolları da imzalanıb.

Ardı 3-cü səh.

# Aqrar sektorda müasir texnikanın tətbiqi günün tələbidir

Prezident İlham ƏLİYEV: "Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir"

Əvvəli 1-ci səh.



Ölkə üzrə innovativ inkişafı təmin etmək üçün 30 rayonda 192 min hektar ərazidə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Bu aqroparklara təqribən 1-1,5 milyard manat sərmayə yatırılacaq.

Hələlik ölkəmizdə 4 aqropark məhsul istehsalı ilə məşğul olur. İlin sonunadək daha 14 aqroparkın fəaliyyətə başlaması nəzərdə tutulub. Qeyd edək ki, bitkiçiliklə məşğul olan 4 aqroparkda məhsuldarlıq yüksəkdir. Məsələn, taxılçılıqda məhsuldarlıq ölkə üzrə 30 sentner/ hektar olduğu halda aqroparklarda bu rəqəm 50 sentnerdir.

Aqrar sektorda islahatların aparılması müsbət nəticələr verir. Cari ilin 6 ayı ərzində kənd təsərrüfatında 7,6 faiz artım qeyd edilib. Bitkiçilikdə artım daha yüksəkdir - 14 faiz. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, bu ilin yanvar-iyun ayları ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3 milyard 206 milyon manat təşkil edir ki, onun da 1 milyard 774 milyon manatı heyvandarlıq, 1 milyard 431 milyon manatı bitkiçilik məhsullarının payına düşür.

Qeyd edildiyi kimi, kənd təsərrüfatının inkişafı ərzaq təhlükəsizliyinin təminatı deməkdir. Yəni əhalinin istifadə etdiyi qidanın çox hissəsi bu sektorun payına düşür. Deməli, əhalinin sağlamlığında da aqrar sektor önəmli rol oynayır. Çünki həmin sahədə insan həyatı üçün təhlükəli maddələrdən normadan çox istifadə edilməsi əhalinin sağlamlığına mənfi təsir göstərməklə nəticələnir. Bunun qarşısını almaq üçün Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Məqsəd Azərbaycana gətirilən ərzaq məhsullarının beynəlxalq standartlara tam uyğun olmasına nəzarət etmək, həmçinin ölkəmizdə istehsal edilən məhsulların bu standartlara uyğunluğunu nəzarətdə saxlamaqdır. Dövlət bu agentliyin nəzarət imkanlarını genişləndirmək məqsədilə regionlarda geniş laboratoriyalar sistemi yaradır. Həmin laboratoriyalar həm ərzağın keyfiyyətinə nəzarət etmək, həm də fermerlərə əkdikləri torpaqların tərkibi haqqında ətraflı məlumat vermək imkanına malikdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İtaliya şirkətləri Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir

Əvvəli 1-ci səh.

Bu günümüzə gəldikdə, iş adamlarının, sahibkarların və mütəxəssislərin belə mötəbər biznes forumunda bir araya gəlməsi hər iki ölkənin qarşılıqlı iqtisadi əlaqələrinin inkişafına təkan verən müsbət amildir.

Azərbaycan və İtaliya prezidentlərinin bu tədbirdə şəxsən iştirak etmələri də iki ölkənin inkişaf edən strateji tərəfdaşlıq əlaqələrinə sadiq qaldıqlarını nümayiş etdirirdi. Forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev İtaliya-Azərbaycan əlaqələrinin bundan sonra da uğurla, sürətlə inkişaf etməsində maraqlı olduğunu bildirdi: "Əlbəttə ki, siyasi əlaqələr yüksək səviyyədə olduqda biznes dairələri də bunu dərhal görür, dərk edir və öz addımlarını atmağa başlayır. Bizim siyasi əlaqələrimiz, - biz dünən də bu barədə cənab Prezidentlə fikir mübadiləsi apardıq, - ən yüksək səviyyədədir. Deyə bilərəm ki, mükəmməldir, həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlıq çox müsbətdir".

Həmin tədbirdən bir gün əvvəl iki dövlət başçısının açılışını birgə etdikləri polipropilen zavodu siyasi əlaqələrin iqtisadi müstəvidə uğurlu inkişafının bariz nümunəsi, Azərbaycan Prezidentinin dili ilə desək, İtaliyanın Azərbaycanda müasir texnoloji əsəridir. Azərbaycan tərəfinin sənaye və iqtisadi inkişafla bağlı kifayət qədər planları və reallaşdırmağa hazır olduğu ideyaları çoxdur. İdeyaların zənginliyi ölkəmizdə sürətlə gedən sənayeləşmə prosesi ilə bağlıdır. Azərbaycan tərəfi gələcək islahatların uğurlu təminatına yalnız müasir dünya təcrübəsinə və yeni texnologiyalara arxalanmır, o həm də etibarlı, sınanmış tərəfdaşların axtarışındadır. Azərbaycan Prezidenti belə hesab edir ki, İtaliya şirkətləri bu baxımdan ölkəmiz üçün xüsusi maraq kəsb edir. Çünki onlar uzun illər Azərbaycan ilə bağlıdırlar, ən yüksək nüfuza və texnoloji imkanlara malikdirlər.

Biznes forumunda italyanlara iqtisadi sahədə gələcək əməkdaşlıq və onun istiqamətləri təklif edildi. Arzu olundu ki, ölkəmizin sənayesinin inkişafı ilə bağlı olan gələcək layihələrdə İtaliya şirkətləri fəal iştirak etsinlər. Üstəlik onlara daha böyük həcmdə sərmayələr yatırmaq üçün şərait yaradılacağına söz verildi.

Azərbaycan həm də nəhəng böyük enerji layihələri icra edir. İndiyədək ölkəmiz Xəzər dənizini ayrı-ayrılıqda Qara və Aralıq dənizləri ilə neft kəmərləri vasitəsilə birləşdirib. Azərbaycanın siyasi və iqtisadi qüdrəti imkan verib ki, Avrasiyanın enerji xəritəsi, demək olar ki, yenidən tərtib edilsin. Hazırda bu iş davam edir və əlavə olaraq "Cənub qaz dəhlizi" layihəsi icra olunur. Maliyyə tutumu 40 milyard dollardan çox olan bu nəhəng layihə bir neçə ölkəni, bir çox şirkətləri birləşdirir. Azərbaycan "Şimal-Cənub nəqliyyat dəhlizi"nə böyük vəsaitlər yatırır, Xəzər hövzəsində ən böyük ticarət donanması yaradılır, 200-dən çox gəmi yükdaşımaları həyata keçirir.

İtalyanlar hesab edirlər ki, Azərbaycana yalnız ticarət və karbohidrogen sahələrində deyil, həm də iqtisadiyyatın şaxələndirilməsində və sənaye proqramlarının inkişafında istinad edilən etibarlı tərəfdaş ola bilərlər. Onlar aydın görürlər ki, bu gün Azərbaycan iqtisadiyyatında şaxələndirmə əsas hədəflərdən biridir. Bu da ona imkan verir ki, dəstək məqsədilə İtaliya fərqli təcrübələrini, texnologiyalarını dost ölkəyə təqdim etsin. İtaliya enerji sahəsində, karbohidrogenlərin nəqlində və kimya sənayesində dünyanın ən müasir təcrübəsinə malikdir. İtaliya Prezidenti Sercio Mattarella çıxışında qeyd etdi ki, son 10 ildə italyan müəssisələrinin və italyan texnologiyalarının Azərbaycanın neft sənayesinə verdiyi töhfə 5 milyard avrodan çoxdur: "İtaliyanın töhfəsi enerji sahəsindən başqa, digər sahələrdə də ola bilər. Belə ki, İtaliya ətraf mühitin qorunması, yenidən dəyərləndirilməsi, kənd təsərrüfatının inkişafı və emal sənayesinin transformasiyası, infrastruktur, nəqliyyat, logistika, tikinti kimi sahələrdə Azərbaycanın inkişafına töhfə verməyə hazırdır".

Həqiqətən, Azərbaycan iqtisadiyyatın şaxələndirilməsində İtaliyanın tərəfdaşlığından daha geniş faydalana bilər. Enerji, ətraf mühitin qorunması sahələri ilə bağlı layihələr italyanlar üçün maraqlıdır. Çoxtərəfli çərçivədə daha təmiz enerjilərə keçidi asanlaşdıraraq planetdə ekoloji balansın qorunmasında İtaliya müəssisələri faydalı ola bilər. Azərbaycan hökumətinin iqtisadiyyatın şaxələndirilməsi və müxtəlif regionların inkişafı üçün kənd təsərrüfatına böyük önəm verdiyini nəzərə alan italyanlar bu sahədə olan təcrübə və imkanlarını təklif etməyə hazırdırlar.

İki ölkənin keçirdiyi biznes forumunda logistika, nəqliyyat və infrastruktur sahələrinə, ölkəmizin strateji baxımdan mövqeyinə önəm verildi. Bu zəmində də uzunmüddətli müştərək layihələrin reallaşdırılmasının mümkün olduğu vurğulandı. İtalyanlar liman və infrastrukturlar üçün informasiya sahəsində uğurla fəaliyyət göstərirlər. Bu təcrübə Xəzər dənizi regionunda nəqliyyat idarəetməsinin mərkəzinin təşkilində öz töhfəsini verə bilər.

"Bizim müştərək iqtisadi maraqlarımız bizi ölkənizlə Avropa İttifaqı arasında olan əməkdaşlıqdan irəli gələn imkanlardan istifadə edərək dialoqumuzu daha da inkişaf etdirərək genişləndirməyə yönəldir. Məhz ötən günlərdə tərəfdaşlıq prioritetləri ilə bağlı danışıqların yekunlaşması ilə əhəmiyyətli irəliləyiş qeydə alındı. Strateji baxımdan regionda önəmli rola malik olan Azərbaycan Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi üçlüyünün iqtisadi potensialının inkişafında yeni bir səhifənin baş qəhrəmanı ola bilər. Biz tarixi dostluğumuz və tərəfdaşlığımızın potensialından istifadə edərək dənizlərimiz arasında bu körpünü birlikdə tikməliyik". Bu sözləri də qeyd etdiyimiz biznes forumunda İtaliya Prezidenti Sercio Mattarella söylədi.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Qeyri-neft sənayesinin inkişafı iqtisadi sabitliyin qarantıdır

Əvvəli 1-ci səh.

Belə ki, Mingəçevir Sənaye Parkında investisiya dəyəri 85 milyon dollar olan 2 iplik fabrikində xammal kimi pambıq, barama və yundan istifadə olunur.

Azərbaycanda sənaye parkları ilə yanaşı, sənaye məhəllələri də fəaliyyətə başlayır. Sənaye məhəllələri sənaye parklarına nisbətən kiçikdir. Ona görə də gələcəkdə ölkənin bütün rayonlarında sənaye məhəllələrinin yaradılması nəzərdə tutulub. Bu məhəllələrdə yaradılacaq müəssisələr də əsasən yerli xammaldan istifadə edəcək. Bu, digər sahələrin inkişafına da imkan verəcək. Məsələn, meyvə-tərəvəzi konservləşdirməklə məşğul olan hər bir müəssisə eyni zamanda fermerlərin real alıcısıdır. Yəni kəndli məhsul yetişdirəndə arxayın olacaq ki, onun alıcısı var.

Neftçala Sənaye Məhəlləsində 8 müəssisəyə 45 milyondan çox investisiya qoyulub, 500-ə yaxın yeni iş yeri açılıb. Sevindirici hal odur ki, Neftçala kimi bir əyalət şəhərində yaxın gələcəkdə ildə 10 min avtomobil istehsal olunacaq. Bu avtomobillər daxili bazarla yanaşı, bir sıra xarici ölkələrə də ixrac ediləcək. Artıq 100-ə yaxın avtomobilin satışına başlanlıb, daha 200 avtomobil üçün sifariş qəbul edilib. Bununla yanaşı, Masallı Sənaye Məhəlləsinin tikintisi başa çatdırılıb. Hacıqabul və Sabirabad sənaye məhəllələri isə ilin sonunadək istifadəyə veriləcək.

Göründüyü kimi, qeyri-neft sektorunun inkişafı ölkənin dayanıqlı inkişafının əsas təminatçısıdır. Son vaxtlar görülən işlər nəticəsində ixracda qeyri-neft məhsullarının çəkisinin artması müsbət haldır. Lakin bu sahədə görüləcək işlər də çoxdur. İnkişaf etmiş ölkələrin keçdikləri yola diqqət yetirdikdə görürük ki, bu prosesin başa çatmasına uzun illər lazımdır. Biz isə həmin yolun, demək olar ki, yarısındayıq. Amma şübhə yoxdur ki, həyata keçirilən siyasətin davamı nəticəsində Azərbaycan bu sahədə də qarşıya qoyulan məqsədə nail olacaq.

***R.KAMAL,***
***"Azərbaycan"***

# "Cənub qaz dəhlizi"nin başlanğıc nöqtəsi

Əvvəli 1-ci səh.

Bu il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev "Şahdəniz"in əhəmiyyəti barədə demişdir: "1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz "Xəzər Neft-Qaz" sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə "Cənub qaz dəhlizi"nin açılışını qeyd edərkən biz görürük ki, bu nə qədər vaxtında atılmış və müdrik addım idi. "Şahdəniz" qaz yatağı "Cənub qaz dəhlizi"nin əsas resurs bazasıdır".

"Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəməri (CQBK) "Cənub qaz dəhlizi"nin ilk iki seqmentini təşkil edir. Buraya iki platforma, 500 kilometr uzunluğunda sualtı kəmərlər və axın xətləri, Səngəçal terminalındakı yeni qurğular daxildir. İkinci mərhələnin qazını nəql etmək üçün CQBK da genişləndirilib. Genişləndirmə işləri Azərbaycanın ərazisində 428 kilometr uzunluğunda yeni kəmərin, Gürcüstanda 59 kilometrlik yeni boru xəttinin və iki yeni kompressor stansiyasının tikilməsini əhatə edirdi. Bu işlərə ümumilikdə 28 milyard dollar həcmində investisiya qoyulub.

Xatırladaq ki, CQBK Türkiyə ərazisində 1850 kilometr məsafə boyu uzanan Transanadolu Qaz Boru Kəməri (TANAP) ilə birləşir. "Şahdəniz-2" qazının Türkiyəyə nəqli artıq başlanıb.

Qazı Avropaya daşıyacaq 3500 kilometrlik qaz dəhlizinin sonuncu hissəsi isə Transadriatik Qaz Boru Kəməri (TAP) olacaq. İstifadəyə verilməsi 2020-ci ilin əvvəlinə gözlənilən bu kəmər Yunanıstan, Albaniya və İtaliyanın ərazisində 878 kilometr yol qət edəcək. Xəzərin Azərbaycan sektorundan başlanan bu uzun yolun getdikcə şaxələndiriləcəyi də mümkündür.

Təsadüfi deyil ki, Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında neft-qaz sektorunda nəzərdə tutulmuş bütün işlərin qrafik üzrə getdiyi vurğulanıb. Dövlət başçısı bu sahədə görülmüş işlərin hamısının ən yüksək qiymətə layiq olduğunu bildirib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın müdafiə naziri "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının açılış mərasimində iştirak edib





Moskvada səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov iyulun 28-də Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları - 2018" yarışlarının təntənəli açılış mərasimində iştirak edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbçilərimiz ölkəmizdə keçirilən "Dəniz kuboku" ilə yanaşı, Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" və Belarusda "Snayper həddi" müsabiqələrinə qatılıblar.

Bundan əlavə, hərbçilərimiz İranda keçirilən "Dərinlik" və Rusiyada təşkil olunan "Qoşun kəşfiyyatı əlaçıları" müsabiqələrində ölkəmizi müşahidəçi qismində təmsil edirlər.

# Azərbaycan tankçıları "Tank biatlonu" müsabiqəsində öz qruplarında birinci olublar



İyulun 28-də "Beynəlxalq Ordu Oyunları - 2018" yarışları çərçivəsində "Tank biatlonu" müsabiqəsinə start verilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarışların ilk günündə Azərbaycan tankçıları qruplarında yer aldıqları Zimbabve, Hindistan və Cənubi Afrika Respublikasından olan tank heyətləri ilə güclərini sınayıblar.

Tankçılarımız müsabiqənin şərtlərinə əsasən şərti hədəfləri sərrast atəşlə məhv edərək marşrut üzrə müəyyən olunan məsafəni qısa müddətdə qət ediblər.

Beləliklə, yarışların ilk günü tank heyətlərimiz rəqiblərini xal hesabında xeyli geridə qoyaraq qrupda birinci olublar.

Bu il 23 ölkənin tank heyətləri "Tank biatlonu" müsabiqəsində iştirak edir.

# "Dəniz kuboku - 2018" beynəlxalq müsabiqəsində iştirak edən ölkələrin komandaları artilleriya atışlarını məşq etdiriblər



"Dəniz kuboku - 2018" beynəlxalq müsabiqəsinə hazırlıq çərçivəsində Azərbaycan, Rusiya, İran və Qazaxıstan hərbi gəmiləri Xəzər dənizindəki döyüş hazırlığı poliqonunun ərazisində artilleriya atışlarını məşq etdiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən hərbi dənizçilər üzən minaların məhv edilməsi məqsədilə ilkin artilleriya atışları icra edib, eləcə də gəmilərin müxtəlif üsullarla yanalmasını məşq etdiriblər.

Növbəti hazırlıq mərhələsində gəmi heyətləri dəniz və hava hədəflərinə artilleriya atışlarını, habelə heyətlərin sağqalma qabiliyyətini məşq etdirəcəklər.

* * *

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bazasında "Dəniz kuboku - 2018" beynəlxalq müsabiqəsinin hakimlərinə hakimlik hüququ verən sertifikatlar təqdim edilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, keçirilmiş seminarda hakimlər "Hakimlik haqqında" Əsasnamənin müzakirəsi zamanı hakimliyin prinsip və kriterləri, mükafat və cərimə ballarının hesablanması qaydası üzrə yekdil razılığa gəlib, hakimlərin səlahiyyət və vəzifələrini müəyyən ediblər. Müsabiqənin təşkilatçıları tərəfindən hakimlərə verdikləri ixtisas məqbullarının nəticələrinə görə qol sarğısı və hakimlik hüququ verən sertifikatlar təqdim olunub.

***AZƏRTAC***



# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbir görürlər. Dövlət Gömrük Komitəsinin (DGK) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 28-də Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Şamaxı şəhərində vətəndaşları qəbul edib.

Qəbulda bölgədə yerləşən - Şamaxı, Qobustan, Ağsu və İsmayıllı rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı DGK sədri hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

* * *

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Zaqatala rayonunda vətəndaşların müraciətlərini dinləyib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov iyulun 28-də Zaqatalada növbəti vətəndaş qəbulu keçirib.

Komitədən AZƏRTAC-a bildirilib ki, Heydər Əliyev Mərkəzində təşkil olunan qəbul zamanı vətəndaşların daşınmaz əmlakla bağlı bütün təklif və müraciətlərinə baxılıb. Qeyd edək ki, komitənin struktur vahidlərinin də iştirak etdiyi qəbulda Zaqatala rayonu ilə yanaşı, Balakən və Qax rayonlarının sakinlərinin də müraciətləri dinlənilib. Səsləndirilən müraciətlərin bir qismi torpaqların təyinatına uyğun istifadəsi, kateqoriyasının dəyişdirilməsi prosedurları, torpaq sahələrinin sərhədlərinin dəqiqləşdirilməsi, fərdi həyət evi, bələdiyyələr tərəfindən müxtəlif məqsədlərlə ayrılmış torpaqlar, vaxtilə verilmiş pay torpaqları ilə bağlı faktiki və sənəd uyğunsuzluqlarının aradan qaldırılması ilə əlaqədar olub. Eyni zamanda, daşınmaz əmlakın qeydiyyatı, əmlaklara dair mülkiyyət hüququnun əldə edilmə qaydası, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı müraciətlər də ünvanlanıb.

Bütün vətəndaş müraciətlərini həssaslıqla dinləyən komitə sədri Kərəm Həsənov müraciətlərin qanunvericiliyə uyğun həll olunması istiqamətində müvafiq tapşırıqlar verib.

# "Jara-2018": hərarət artır





Bakıda, "Sea Breeze Resort" istirahət mərkəzində üç gündür davam edən "Jara-2018" Beynəlxalq Musiqi Festivalının konsert proqramları həm iştirakçılara, həm də tamaşaçılara xoş anlar yaşatmaqdadır. AZƏRTAC xəbər verir ki, iyulun 28-də festival iştirakçılarının qırmızı xalı üzərində keçidi olub.

MuzTv-nin baş direktoru Arman Davletyarov da övladları ilə birgə xalıdan keçib. Xalıdan keçən dünya şöhrətli musiqiçi Brandon Hovard "Jara"nın əvəzinin olmadığını deyib, festivala çoxlu sayda parlaq ulduzun qatıldığını vurğulayıb.

Yuliya Baranovskaya Bakıda keçirilən bu möhtəşəm festivalda iştirakından məmnunluğunu bildirib.

Marina Novikova deyib ki, "Jara" çox gözəl festivaldır və burada iştirak etmək onun üçün nailiyyətdir.

Sergey Kojevnikov "Leninqrad" qrupunun Bakıda ilk dəfə çıxış edəcəyini və bunun onlar üçün mühüm hadisə olacağını qeyd edib.

Azərbaycanın xalq artisti Emin Ağalarov "Jara-2018"in üçüncü gecəsinin də yaddaqalan olacağını vurğulayıb.

Qırmızı xalıdan, həmçinin Romadi, Aleks Malinovski, Danil Buranov, Nikolay Rastorquyev, Elvira T., "Cosmos girls" qrupu, ST, Manana, Səmra, İqor Qulyayev, Jasmin, Anjelika Aqurbaş, Qriqori Lepsin Prodüser Mərkəzindən Şarif, festivalın təşkilatçılarından biri olan Sergey Kojevnikov və başqaları keçiblər.

Xalıdan keçən tanınmış müğənnilər "Jara-2018"lə bağlı təəssüratlarının zəngin olduğunu bildirib, Bakının günəşli havasının, Xəzər dənizinin və festivalda ifaların əsl bayram əhvali-ruhiyyəsi yaratdığını qeyd edib, azərbaycanlıların qonaqpərvərliyini vurğulayıblar. Onlar, həmçinin festivala böyük həvəslə hazırlaşmalarından, yaradıcılıqlarında olan yeniliklərdən söz açıblar.

Qırmızı xalının aparıcıları Yana Koşkina və Konstantin Tarasyuk olub.

# "Jara-2018" Beynəlxalq Musiqi Festivalı çərçivəsində Heydər Əliyev Mərkəzinin parkında konsert olub





"Jara-2018" Beynəlxalq Musiqi Festivalı maraqlı konsert proqramları ilə davam edir. AZƏRTAC xəbər verir ki, festival çərçivəsində iyulun 28-də Rusiyanın MuzTv kanalının təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzinin parkında konsert olub. Konsertdə Rusiyanın tanınmış ulduzları ilə yanaşı, yerli müğənnilər də iştirak ediblər. Konsert proqramında təqdim olunan bir-birindən maraqlı ifalar paytaxt sakinlərində və şəhərimizin qonaqlarında əsl bayram əhvali-ruhiyyəsi yaradıb.

Möhtəşəm ifa nümayiş etdirən müğənnilər konsertdə öz vokal imkanlarını təqdim edərək musiqi ilə emosiyalar arasındakı bağlılığı bir daha sübut ediblər.

Mədəniyyət, musiqi xalqları bir-birinə daha da yaxınlaşdırır, insanlar arasında sülhü, sevgini və gözəl hissləri təbliğ edir. Belə tədbirlərin təşkili Azərbaycanın və Rusiyanın bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də genişmiqyaslı əməkdaşlığının əyani göstəricisidir. Bu sahədə müştərək layihələri dəstəkləmək və qarşılıqlı əlaqələrin inkişafı üçün birgə fəaliyyət xalqlarımızın bir-birini daha da yaxından tanımasına öz töhfəsini verir. Xatırladaq ki, "Jara" festivalının təşkilatçıları müğənni və bəstəkar, Azərbaycanın xalq artisti Emin Ağalarov, Rusiyanın əməkdar artisti Qriqori Leps, "Russkoye radio"nun və "Qızıl qrammofon" mükafatının təsisçisi Sergey Kojevnikovdur.

# "Jara-2018": bənzərsiz ifalar, sürpriz duetlər, hərarətli alqışlar




Bakıda, Xəzərin qumlu sahilindəki "Sea Breeze" istirahət mərkəzində "Jara-2018" Beynəlxalq Musiqi Festivalının üçüncü gününün konsert proqramı təqdim edilib. Coşqun musiqi, Xəzər sahilinin füsunkar mənzərəsi bir məkanda birləşərək həm festival iştirakçılarına, həm də tamaşaçılara unudulmaz anlar yaşadıb. "Jara" bu isti iyul günlərində Bakının mədəni həyatına özünəməxsus hərarət gətirir. Bənzərsiz ifalar, sürpriz duetlər, yeni aranjemanlar, maraqlı performanslar, hərarətli alqışlar...

AZƏRTAC xəbər verir ki, iyulun 28-də festivalda Manana, Səmra, Timur Rodrigez, Yulianna Karaulova, EMIN, A'Studio və Jah Khalibin dueti, Aleks Malinovski, Aleksandr Panayotov, Aleksey Çumakov, Yuliya Kovalçuk, Karina Xvoynitskaya, Kravts, İrina Dubtsova, Band'Eros, Mari Kraymbreri, MONATIK, Elvira T., Jak Entoni, Qlyuk'oza, Brendon Horvard, Slava, Djiqan, Ani Lorak, Jasmin və başqaları öz ifaları ilə tamaşaçılara xoş anlar yaşatdılar. Bu il festivala qatılan "Leninqrad" qrupu Bakıda ilk dəfə çıxış etdi.

Müğənnilər çıxışlarından sonra səmimi qonaqpərvərliyə görə təşəkkür edir, festivalda gözəl əhvali-ruhiyyənin olduğunu vurğulayır, bu musiqi bayramında bir daha iştirak edəcəklərini söyləyirdilər.

Festivalın üçüncü günü gənc istedadların çıxışları ilə də yadda qaldı. Bənzərsiz mahnılar, tamaşaçıların da ifalara qoşulması, rəqslər əsl bayram əhvali-ruhiyyəsi yaratdı. Burada hər kəs yayın isti günündə bir daha, sözün əsl mənasında, "Jara" hərarətini yaşadı.

Xatırladaq ki, festivalın təşkilatçıları müğənni və bəstəkar, Azərbaycanın xalq artisti Emin Ağalarov, Rusiyanın əməkdar artisti Qriqori Leps, "Russkoye radio"nun və "Qızıl qrammofon" mükafatının təsisçisi Sergey Kojevnikovdur.

# Festivalın təşkilatçıları hər bir detalı yüksək səviyyədə düşünüblər

Bakıda möhtəşəm musiqi bayramı - "Jara-2018" Beynəlxalq Musiqi Festivalı davam edir. Festivalı canlı izləmək üçün dünyanın müxtəlif ölkələrindən insanlar Bakıya gəliblər. Onların arasında tanınmış siyasi xadimlər də var. Belə simalardan biri də Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovdur. Festivalın ikinci gününün fəxri qonaqları sırasında olan Dmitri Peskov xanımı ilə qırmızı xalıdan keçib. Rusiya Prezidentinin mətbuat katibi aparıcının suallarını cavablandırarkən qeyd edib ki, Bakıda dəfələrlə rəsmi səfərdə olsa da, ilk dəfədir buraya məzuniyyət vaxtında gəlib. O deyib: "Bu, xoşbəxtlikdir. Bakı gözəl şəhərdir".

"Jara" festivalı ilə bağlı təəssüratlarını bölüşən Dmitri Peskov rusiyalı müğənnilərin Bakıya, ecazkar Azərbaycana gəlmələrini çox gözəl təşəbbüs kimi dəyərləndirərək deyib: "Azərbaycan tarixən gözəl, çoxmillətli, bizim estradanın çox sevildiyi bir ölkədir. Bizim artistlər buraya böyük məmnuniyyətlə gəlirlər. Buna görə də bu, çox əladır. Bu, olduqca gözəl təşəbbüsdür. Çünki Azərbaycan möhtəşəm ölkədir, Bakı füsunkar şəhərdir. Bizim Rusiyanın ulduzları, buraya hətta bir neçə günlük belə, böyük həvəslə gəlirlər və çox zəngin təəssüratla qayıdırlar. Deməli, biz bir-birimizi unutmuruq. Müasir dünyada bu, çox vacibdir".

Əminliklə demək olar ki, üçüncü dəfə təşkil edilən "Jara" festivalı MDB məkanının ən çox sevilən və gözlənilən mədəni tədbirlərindən biridir. Mədəniyyət, musiqi xalqları bir-birinə daha da yaxınlaşdırır, insanlar arasında sülhü, sevgini və gözəl hissləri təbliğ edir.

* * *

"Bakı hər dəfə fərqli görünüşü, durmadan inkişafı, çiçəklənməsi ilə məni təəccübləndirir. Əfsuslan olsun ki, hələ şəhəri bütünlüklə gəzməyə vaxtım olmayıb. Vaxtımızı hələ ki məşqlərdə və ləziz yeməklərinizdən dadmaqla keçiririk". Bu sözləri müsahibəsində "Jara" festivalının iştirakçısı, Rusiyanın tanınmış müğənnisi və aktrisası Kristina Orbakayte deyib.

"Jara" festivalında Valeriya ilə duet səsləndirəcəyini söyləyən K.Orbakayte bu möhtəşəm musiqi bayramının yüksək səviyyədə təşkil olunduğunu bildirib: "Hər dəfə müğənnilər, şoumenlər, tanınmış ulduzlar bu festivalda iştirak etməyi səbirsizliklə gözləyirlər. Mənim müğənni dostlarım festival üçün məxsusi hazırlaşırlar. Repertuarlarından yeni mahnıları təqdim etməyə çalışırlar. Çox gözəl vəhdət var. Dəniz sahili, isti, bayram əhvali-ruhiyyəsi. Festivalın təşkilatçıları hər bir detalı yüksək səviyyədə düşünüblər. Təbii ki, bu işdə çox insanın zəhməti var. Ona görə də nəticə göz qabağındadır. Hər kəsi təbrik edirəm. Bakıda görüləcək yerlər çoxdur. Bu dəfə şəhərin bütün görməli yerlərini gəzmək fikrindəyəm", - deyə Orbakayte əlavə edib.

* * *

"Bakı inanılmaz dərəcədə gözəl qonaqpərvər şəhərdir. Mən sizin şəhərinizin vurğunuyam. Belə möhtəşəm musiqi bayramı təşkil etdiklərinə görə Prezident İlham Əliyevə və Ağalarovlar ailəsinə minnətdarıq. "Jara" festivalı yüksək səviyyədə təşkil olunub və bura yenə qayıtmaq istəyirəm".

Bu sözləri müsahibəsində "Jara" festivalının iştirakçısı, Rusiyanın tanınmış televiziya aparıcısı və aktrisası Kseniya Borodina deyib.

Bakıda fanatlarının olmasının onu sevindirdiyini söyləyən K.Borodina mehriban dost Azərbaycan xalqını sevdiyini vurğulayıb: "Bakı tamaşaçısının böyük marağını, isti münasibətini də xüsusi qeyd etmək istərdim. Bu, əslində musiqinin təntənəsidir. Mən "Jara"nı səbirsizliklə gözləyirdim. Bakıda, Xəzərin sahilində keçirilən möhtəşəm festivalda iştirak etməkdən olduqca məmnunam".

* * *

"Jara" festivalı nəinki Azərbaycanda, hətta Postsovet məkanında unikal musiqi hadisəsidir. MDB ölkələrinin ən tanınmış ulduzları Bakıya toplaşıb. Bu mötəbər musiqi bayramında ölkəmizi təmsil etdiyimə görə qürur duyuram". Bu sözləri müsahibəsində "Jara" festivalının iştirakçısı, Azərbaycanın əməkdar artisti Sevda Ələkbərzadə deyib.

Festivalda Elza İbrahimovanın "Sən yadıma düşəndə" mahnısını ifa etdiyini söyləyən müğənni tamaşaçıların onun ifasından məmnun qaldıqlarına ümidvar olduğunu bildirib.

Festivalda bir-birindən maraqlı konsertlərin təşkil edildiyini diqqətə çatdıran Sevda Ələkbərzadə müxtəlif janrlarda musiqilərin səsləndirildiyini, bu möhtəşəm musiqi bayramı haqqında hələ çox danışılacağını vurğulayıb.

* * *

"Azərbaycan xalqı olduqca qonaqpərvərdir. Bakıda özümü doğma evimdəki kimi hiss edirəm". Bu sözləri müsahibəsində "Jara" festivalının iştirakçısı, tanınmış ifaçı Potap deyib.

Bakı tamaşaçılarında yüksək musiqi duyumu olduğunu vurğulayan tanınmış prodüser Azərbaycan folkloru və mətbəxi ilə bağlı təəssüratlarını da bölüşüb: "Sizin sevgi haqqında mahnılarınızı uşaq vaxtlarımdan bilirəm. Azərbaycanda çoxlu dostlarım var. Məşhur "Bakılı oğlanlar"ın "KVN"dəki çıxışlarını hələ də unutmamışam. İnsanlarınız çox mehriban və istiqanlıdır. Məni tez-tez qonaqlıqlara dəvət edirlər. Yeməkləriniz olduqca dadlıdır".

"Jara" xalqları, insanları dostluğa səsləyən festivaldır. Mənim də arzum odur ki, qoy dostluq, qardaşlıq zəfər çalsın", - deyə Potap bildirib.

# Qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq davam edəcək

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, filologiya elmləri doktoru İsa Həbibbəylinin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Udmurtiya Respublikasında səfərdədir.

Beynəlxalq Avrasiya Mətbuat Fondundan AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinə Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu və Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentinin köməkçisi Ağahüseyn Şükürov daxildir.

Səfərin məqsədi qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq məsələlərini müzakirə etməkdir.

İyulun 27-də Azərbaycan nümayəndə heyətinin Udmurtiya Dövlət Şurasının Rəyasət Heyətinin üzvləri ilə görüşü olub. Görüşdə parlament sədrinin birinci müavini Vladimir Nevostruyev qeyd edib ki, Udmurtiya ilə Azərbaycanı qarşılıqlı hörmətə, əməkdaşlığa və dostluğa əsaslanan uzunmüddətli güclü tərəfdaşlıq əlaqələri birləşdirir. Vladimir Nevostruyev Azərbaycandakı sabitlikdən, ölkəmizdə bütün xalqların nümayəndələri üçün yaradılan bərabər şəraitdən, Azərbaycanın orijinal mədəniyyətindən bəhs edib. O, Azərbaycan Milli Məclisi ilə Udmurtiya Dövlət Şurası arasında müzakirələrin və təcrübə mübadiləsinin aparılması üçün bir çox ümumi mövzuların olduğunu qeyd edib, gələcəkdə səmərəli parlamentlərarası əməkdaşlığa ümid etdiyini bildirib.

İsa Həbibbəyli deyib ki, Udmurtiyaya səfər elmi və informasiya əməkdaşlığı sahəsində yeni perspektivlər açmaq məqsədi daşıyır.

Nümayəndə heyətinin üzvləri Udmurtiya Respublikası ərazisində Azərbaycan mədəniyyətinin dəstəklənməsi və inkişafı, milli məsələlərin həllinə diqqət ayırdığı üçün Dövlət Şurasının deputatlarına minnətdarlıqlarını ifadə ediblər.

Sonra nümayəndə heyətinin üzvləri üçün respublikanın parlament binasında, Parlamentarizm muzeyinin ətrafında ekskursiya təşkil edilib.

Qonaqlar Böyük Vətən müharibəsi zamanı həlak olmuş əsgərlərin xatirəsini yad edərək Udmurtiyanın döyüş və şərəfli əmək abidəsi önünə çiçəklər düzüblər.

Səfər çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyası ilə Rusiya Elmlər Akademiyası Ural şöbəsinin Federal Araşdırmalar Mərkəzi arasında strateji əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqaviləni Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli və Rusiya Elmlər Akademiyasının Ural şöbəsinin Udmurtiya Federal Araşdırmalar Mərkəzinin direktoru Aleksey Borisoviç Seminihin imzalayıblar.

İmzalanma mərasimində İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan və Udmurtiya arasında münasibətlər birgə tədqiqat proqramlarının, layihələrin, elmi məlumatların, ədəbiyyat və biblioqrafik nəşrlərin mübadiləsinin həyata keçirilməsi, birgə tədqiqat qruplarının formalaşdırılması, birgə beynəlxalq konfransların, seminarların, simpoziumların və tərəflərin razılığı ilə qarşılıqlı fayda doğuran digər tədbirlərin təşkili üçün bərabərlik, tərəfdaşlıq və qarşılıqlı faydalılıq əsasında, dostluq, etimad və qarşılıqlı hörmət ruhunda inkişaf edəcək.

Müqavilənin imzalanması mərasimində REAUrŞ-nin Federal Araşdırmalar Mərkəzinin Udmurtiya Tarix, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini L.N. Bexterev, elm və təhsil nazirinin müavini İ.Q.Kroxina, respublika milli siyasət nazirinin müavini N.N.Mamayev, Kamsk Humanitar və Mühəndis Texnologiyaları İnstitutunun rektoru, professor V.A.Nikulin, həmçinin alimlər, elmi işçilər və "Dostluq"- Udmurtiya Azərbaycan İctimai Mərkəzinin nümayəndələri iştirak ediblər.

Daha sonra qonaqlar dünyaca məşhur "Buranovskiye babuşki"nin qonağı olublar. "Buranovskiye babuşki" muzeyində olan nümayəndə heyətinin üzvləri 200 illik tarixə malik yaylıqlar, xalq çalğı alətləri kolleksiyası, müxtəlif əşyalar və artistlərin tədbirlərdə qazandığı mükafatlara baxıblar.

"Buranovskiye babuşki" kollektivi qonaqlar üçün mahnılar ifa ediblər. Udmurt dilində ifa olunan Müslüm Maqomayevin "Mənim Azərbaycanım" mahnısı qonaqların qəlbini fəth edib. "Buranovskiye babuşki"nin rəhbəri Olga Tuktareva qeyd edib ki, bu mahnını onlar Azərbaycan xalqına minnətdarlıq əlaməti olaraq ifa ediblər.

Nümayəndə heyəti "Buranovski babuşki"nin vəsaiti hesabına inşa edilən məbədi də ziyarət edib.

Azərbaycan Respublikasının nümayəndə heyəti daha bir neçə gün Udmurtiyada olacaq. Səfərin davamı olaraq bir sıra rəsmi tədbirlər planlaşdırılıb.

Qeyd edək ki, səfər Beynəlxalq Avrasiya Mətbuat Fondu və Zülfüqar Mirzəyevin rəhbərlik etdiyi "Dostluq"-Udmurtiya Azərbaycan İctimai Mərkəzinin təşkilatçılığı ilə reallaşdırılıb.

## *Beynəlxalq yay məktəbləri:*

# 20-dək xarici ölkə universitetinin tələbələri burada bir araya gəlir

*Əvvəli 1-ci səh.*



Mərkəzin növbəti yay məktəbi layihəsi də Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisinin məntiqi davamı kimi dəyərləndirilməlidir. Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşadıldığı ölkəmizdə özlərinin görüb şahid olmasına şərait yaratmaqdan ibarətdir.

Prezident yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə reallaşan yay məktəbində 15 ölkənin (Çin, İndoneziya, Nigeriya, Almaniya, Polşa, Çexiya, Ukrayna, İsveçrə, Türkiyə, Bolqarıstan, Rusiya, Yunanıstan, Qırğızıstan, Yəmən və İrlandiya) 18 universitetindən 40-dan artıq tələbə iştirak edib. Ölkəmizdə fəaliyyət göstərən universitetlərdən də yay məktəbi layihəsinə xeyli tələbə qatılıb.

Beynəlxalq multikulturalizm yay məktəbi Bakı ilə yanaşı, Qəbələ, Oğuz, Şəki və Qaxda da fəaliyyət göstərir. Proqrama iştirakçıların Azərbaycanda yaşayan müxtəlif dini və etnik icmaların rəhbərləri ilə görüşləri də daxil edilir. Tələbələr "Azərbaycançılıq və etnik rəngarənglik", "Terror multikulturalizmə qarşı", "Azərbaycan multikulturalizminin tarixi: maddi-mənəvi dəyərlər", "Multikulturalizm Azərbaycan musiqisində", "Azərbaycanda dini müxtəliflik" mövzularında mühazirələr dinləyib, İsmayıllıda yerli gənclərlə birgə "Dünya ölkələrində multikulturalizm modelləri" adlı "dəyirmi masa"da iştirak ediblər.

Yeri gəlmişkən, ölkəmizin multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xaricdə təbliğini təmin etmək məqsədilə də beynəlxalq "Virtual dəyirmi masa"lar keçirilib. Toplanan materiallar rus və ingilis dillərinə tərcümə olunaraq kitabçalar formasında nəşr edilib. Respublikada mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib reallaşdırmaq, Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətinin təbliği mexanizmini hazırlamaq vəzifələrinin yerinə yetirilməsi məqsədilə nəşr edilən "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı əcnəbi tələbələr üçün yalnız məlumat xarakterli deyil. Burada həm də xalqımızın milli-mənəvi və mədəni dəyərlərə töhfəsi ilə yaxından tanış ola bilirlər. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ölkəmizdə fəaliyyət göstərən dini qurumların və konfessiyaların, icmaların rəhbərləri ilə keçirdiyi tədbirlərdə Azərbaycan multikulturalizminin xüsusiyyətləri, ölkə rəhbərinin bu sahəyə olan diqqət və qayğısı barədə geniş diskussiyalar aparıb.

Yay məktəblərinin keçirildiyi ünvanlar da müxtəlifdir, təşkilatlar da. Onların arasında dövlət strukturları da var, özəl qurumlar da. Xatırladaq ki, Azərbaycan Dövlət Aqrar Universiteti də 2018-ci ilin 14-28 iyul tarixlərində "Davamlı inkişaf hədəfləri" adlı Birinci Beynəlxalq Yay Məktəbi təşkil edib. Məqsəd yerli və xarici ali təhsil müəssisələrinin bakalavriat tələbələrini bir yerə toplamaqla "Davamlı inkişaf hədəfləri"ni, onların icra vəziyyətini və qlobal əməkdaşlığı müzakirə etməkdir. İngilis dilində təşkil olunan məktəbdə iştirak üçün qeydiyyat, yaşayış və qidalanma ödənişsizdir. İştirakçılar universitetin Tələbə evində yaşayış yeri ilə təmin olunurlar. Yay məktəbində davamlı inkişaf hədəflərinə dair məsələlər müzakirə olunmaqla yanaşı, iştirakçılar üçün Nizami məqbərəsi, Heydər Əliyev Park-Kompleksi, Qala qapıları: Gəncənin Bayraq meydanı, Arxeologiya və Etnoqrafiya Muzeyi, "Zəfər tağı", Nizami Gəncəvi Muzeyi, Məhsəti Gəncəvi Mərkəzi, "İmamzadə" dini kompleksi, Xan bağı, Şah Abbas Məscidi, Göygöl, Maralgöl, Mirzə Şəfi Vazeh, "Xəmsə" parkları, "Gəncəçay" park-bulvar kompleksi və digər diqqətçəkən yerlərə, habelə regionda yerləşən fermer təsərrüfatlarına turlar təşkil edilir.

Ümumiyyətlə, yay məktəbləri ölkənin bir neçə bölgəsini əhatə edir. Tədbirlərin keçirilməsi üçün Azərbaycanın qədim tarixini, mədəniyyətini, incəsənətini özündə əks etdirən ən mühüm yerlər nəzərdə tutulur. Ölkəmizin multikultural durumu ilə daha yaxından tanış olmaları üçün tələbələrə Azərbaycan dili, mədəniyyəti, incəsənəti, tarixi və respublikamızda formalaşmış tolerant ənənələr, onların kökləri, bugünkü reallıqlar barədə ətraflı məlumat verilir. Onlar mədəni və dini obyektlərlə tanış olub, müxtəlif görüşlərdə, debatlarda, "dəyirmi masa"larda, mühazirələrdə iştirak edirlər.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# İslam mədəniyyətinin paytaxtı - Naxçıvan

**İslam sivilizasiyasının əsas mərkəzlərindən sayılan, Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynayan Azərbaycan üçün ötən il "İslam həmrəyliyi ili" elan edilməsi ilə yaddaqalan oldu. Bu il də müsəlman dünyasının diqqəti ölkəmizə yönəlib. Azərbaycanın qədim yurd yerlərindən biri - Naxçıvan Muxtar Respublikası tarixinin növbəti əlamətdar ilini yaşayır. Naxçıvan şəhəri 2018-ci ildə "İslam Mədəniyyətinin Paytaxtı" seçilib. Bəşər sivilizasiyasının ilk məskənlərindən olan bu diyar dini-mədəni abidələrlə zəngindir. Bu mənada Naxçıvan şəhərinin "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi təqdirəlayiq hal kimi dəyərləndirilir.**

Qeyd edək ki, Naxçıvan şəhərinin 2018-ci ildə "İslam Mədəniyyətinin Paytaxtı" seçilməsi barədə qərar 2009-cu il oktyabrın 13-15-də Bakıda keçirilmiş İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 2 iyun tarixli sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradıldı. Prezidentin sərəncamında Təşkilat Komitəsi tərəfindən tədbirlər planının hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi tapşırılırdı. Sərəncamda bildirilirdi: "Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır".

Təşkilat Komitəsinin ilk iclası 2016-cı il noyabrın 25-də keçirildi. Ötən dövrdə isə işçi qrupu səviyyəsində yığıncaqlar, Təşkilat Komitəsinin növbəti iclası oldu. Nəhayət, bu il iyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018" ilinin təntənəli açılış mərasimi keçirildi. Tədbirdə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru, TÜRKSOY-un Baş katibi, İndoneziya, Tacikistan, Özbəkistan və Əlcəzairin mədəniyyət nazirləri, İran, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, Türkmənistan və Qətərin mədəniyyət nazirlərinin müavinləri və digər ölkələrin rəsmi şəxslərindən ibarət nümayəndə heyətləri iştirak etdilər. Naxçıvanın Azərbaycanın qədim məskənlərindən biri olmaqla bərabər, həm də özündə ölkəmizin qədim və zəngin tarixini, mədəniyyətini əks etdirdiyini qeyd edən nümayəndələr bu cür tədbirlərlə Azərbaycan mədəniyyəti ilə daha yaxından tanış olmaq imkanı qazandıqlarını diqqətə çatdırdılar. Vurğuladılar ki, belə beynəlxalq əhəmiyyətli tədbirlər bir daha aşkar edir ki, xalqlarımız arasındakı tarixi köklər, musiqi və sənət sahəsindəki oxşarlıqlar onları bir-birinə daha da yaxınlaşdırır.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri çıxışında bu proqramın üzv dövlətlərin birlikdə koordinasiyası çərçivəsində icra olunduğunu, sivilizasiya və bəşəri dəyərlərin İslama bağlılığını nümayiş etdirdiyini nəzərə çatdırdı.

İslam mədəniyyətinin paytaxtları seçilərkən bir sıra vacib məqamlar diqqətdə saxlanılır, konkret meyarlar əsas götürülür. ISESCO-nun Baş direktoru vurğuladı ki, seçilən paytaxt zəngin tarixə sahib olmalı, mədəni baxımdan, eyni zamanda İslam mədəniyyətinə, bəşəri dəyərlərə, insani dəyərlərə töhfə verməlidir. O, Naxçıvanla bağlı təəssüratlarını belə dilə gətirdi: "Mən ilk dəfədir Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gəlirəm. Naxçıvanı kəşf etdikcə belə bir qənaətə gəlirəm ki, bura cənnətdir. İslam tarixinin bir parçası olan Naxçıvan İslamın olduğu kimi təbliğinə öz töhfəsini verir".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov çıxışında bu qədim diyarın qürurverici tarixindən və mədəniyyətindən söz açdı. O, qeyd etdi ki, beş min illik şəhər mədəniyyətinə malik olan Naxçıvan tarixən təktanrıçılığın mərkəzlərindən biri olub və İslamaqədərki dövrdə burada yaşayan Azərbaycan türkləri dini etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından İslam dininə yaxın idilər: "Ona görə də yerli əhali İslam dinini 653-cü ildə könüllü qəbul etmişdir. İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir; mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində islam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır. Mömünə Xatun, Gülüstan, Qarabağlar türbələri, buzxana və hamamlar, qədim məscidlər və digər abidələr bu torpaqda yaradılmış çoxsaylı türk-islam mədəniyyətinin dövrümüzə qədər gəlib çatmış nadir nümunələridir. Bütün bunlar onu göstərir ki, İslam mədəniyyəti güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə inkişaf etmiş, böyük yaradıcı gücə malik olmuşdur. Naxçıvanda türk-islam mədəniyyəti XII əsrdə - Azərbaycan Atabəylər dövləti zamanında özünün intibah mərhələsinə çatmışdır. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə Yaxın Şərq və islam memarlığında yeni bir məktəbin əsasını qoymuşdur".

Naxçıvan orta əsrlərdə İslam mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilib. XV əsrdə tərtib edilmiş "Dünyanın islam tarixi xəritəsi"ndə Naxçıvanın adı qeyd edilib və yazılıb: "Naxçıvan İslamın ən güclü dayaqlarından biridir... Naxçıvan yaşayış məntəqəsi Allaha yaxınlığı ilə Azərbaycan üçün möcüzədir". XVIII əsrdə Naxçıvan xanlığı dövründə də bu torpaqda islam dəyərləri yaşadılıb, tarixi-mədəni irs davam və inkişaf etdirilib. Azərbaycan müstəqillik qazandıqdan sonra isə Naxçıvan Muxtar Respublikasında islam dəyərlərinə yeni yanaşmanın - elmi baxışın əsası qoyulub, türk-islam mədəniyyəti abidələri tədqiq olunub, Naxçıvan islam mədəniyyətinin əsas inkişaf mərkəzi kimi bir daha öz təsdiqini tapıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev də Naxçıvanın mədəniyyəti, tarixi ilə Azərbaycan xalqının qədim sivilizasiyasının beşiklərindən biri olduğunu nümayiş etdirdiyini bildirib: "Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır. Bu torpaqda 1000-dən çox tarixi abidənin mövcud olması və onlardan 60-a yaxın abidənin dünya əhəmiyyətli olması öz-özlüyündə Naxçıvanın qədim tarixinin göstəricisidir". Diqqətə çatdırıldı ki, bu gözəl yurdumuzun "Əshabi-Kəhf" ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Gəmiqaya rəsmləri, "Naxçıvanqala", "Nuh" türbəsi, "Qarabağlar", "Yusif Küseyiroğlu", "Mömünə Xatun" türbələri, Əlincəqala və digər abidələrinin xüsusi bir özəlliyi ondadır ki, bu tarixi irs nümunələri həm maddi-mənəvi, həm də dini inanc baxımından müqəddəs dəyərlərlə bağlıdır. Məhz bu amillər Bakının "İslam Mədəniyyətinin Paytaxtı" kimi qeyd edildiyi 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan olunmasına dair qərar qəbul edilməsini şərtləndirdi.



Azərbaycanda islam dini, adət-ənənələri hər zaman yüksək tutulub. Hətta sovet hakimiyyətinin dinlə bağlı sərt tədbirlər, qadağalar həyata keçirdiyi dövrdə də insanlar öz dini inanclarına sadiq qalır, gizli də olsa, dini adət-ənənələrini yerinə yetirirdilər. Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra ölkə miqyasında hər kəsin öz dini etiqadına, dini adət-ənənələrinə əməl etməsinə şərait yaradıldı.

Sovet hakimiyyəti dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-dən çoxdur. Bu məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycanın digər bölgələri kimi, Naxçıvanda da heç bir dini və mədəni ziddiyyət mövcud deyil və bu birgəyaşama mədəniyyəti dünya üçün nümunədir. Bu sahədə mövcud olan çoxəsrlik tolerant mühit onun islam mədəniyyəti paytaxtları sırasında xüsusi yerini müəyyənləşdirir.

"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018" çərçivəsində həyata keçirilən tədbirlər bir daha dünyaya islamın terrorizmlə eyniləşdirilməsinin qəbuledilməzliyini bildirir. İslam dininin mahiyyəti, onun gözəllikləri, dinindən, dilindən, irqindən asılı olmayaraq hər kəsə mehriban, ədalətli, səxavətli davranmağı, yalnız haqqı, həqiqəti müdafiə etməyi, bəşəriyyətdə sülhün bərqərar olmasını bu il ölkəmizin əsrarəngiz diyarı Naxçıvan dünyaya bəyan edir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı bu dəfə Oğuz elinin qonağı olub

**Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə "100 illik tariximiz" şüarı altında keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı uğurla davam edir.**














Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş layihənin əsas məqsədi zəngin dövlətçilik ənənələrinə malik olan xalqımızın mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin gücləndirilməsidir.

Layihənin yay mövsümündə keçirilməsi yerli sakinlərə, eləcə də bölgələrimizə gələn xarici qonaqlara regionların rəngarəng mədəni həyatı ilə bilavasitə tanış olmaq fürsəti verir.

AZƏRTAC xəbər verir ki, iyunun 25-də Masallı rayonunda startı verilən yaradıcılıq festivalının növbəti tədbiri iyulun 27-də axşam saatlarında Oğuz şəhərində təşkil edilib. Gözəlliyi ilə seçilən şəhər mədəniyyət və istirahət parkında keçirilən tədbirdə rayonun kənd və qəsəbələrindən gəlmiş sakinlər, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, həmçinin respublikamızın digər bölgələrindən olan qonaqlar əsl mədəniyyət bayramının şahidi olublar.

Parkın ərazisində Mədəniyyət Nazirliyinin Sumqayıt, Gəncə, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Lənkəran, Masallı və Biləsuvar regional mədəniyyət idarələrinin festival çadırları qurulub, şəhər və rayonların mədəni irsini əks etdirən sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işlərinin sərgisi keçirilib. Azərbaycanın bölgələrinin mədəni zənginliyi, özünəməxsusluğu, qədim tarixi, ənənələri, incəsənət nümunələri festivala gələnlər tərəfindən böyük maraqla qarşılanıb.

Festivalın açılış mərasimində iştirak edən rayon rəsmiləri bölgələrin mədəni irsinin təbliği baxımından belə tədbirlərin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Regional mədəniyyət idarələrinin təqdim etdikləri konsert proqramı da rəngarəngliyi ilə yadda qalıb. Folklor qruplarının, incəsənət və bədii özfəaliyyət kollektivlərinin ifasında təqdim edilən musiqi nömrələri, rəqslər hamıda xoş ovqat yaradıb.

Festival iştirakçıları tədbirlə bağlı təəssüratlarını AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşüblər. İsmayıllı Regional Mədəniyyət İdarəsinin Şamaxı rayonu üzrə nümayəndəsi Rəfail Tağızadə festivalın əhəmiyyətini yüksək qiymətləndirərək deyib: "Masallıdan başladığımız festival bir aydan çoxdur ki, davam edir. Çox möhtəşəm bir tədbirdir. Festivalın ən böyük əhəmiyyəti odur ki, bu tədbir vasitəsilə biz bir daha Xalq Cümhuriyyətimizin tarixini, xalqımızın malik olduğu zəngin mədəni irsi, adət-ənənələrimizi, folklorumuzu, incəsənətimizi təqdim və təbliğ edirik. Regional idarənin təşkil etdiyi bugünkü sərgidə Lahıc misgərlik sənət nümunələri, xalçaçılıq, papaqçılıq və digər sənət növlərini yaşadan el sənətkarlarımızın əl işləri nümayiş olunur. Şirvan folklor kollektivinin, aşıqlarımızın çıxışları da festival iştirakçılarının ürəyincə oldu".

Lənkəran Dövlət Rəsm Qalereyasının direktoru Məmmədsadıq Axundov festival barədə təəssüratlarını belə ifadə edib: "Bu festival uzun müddət yaddaşlardan silinməyəcək. Bölgələrimizin təqdim etdikləri sərgilərə baxdıqca insanlarda sənətə olan məhəbbət artır. Onlar böyük həvəslə bu sənət nümunələrinə tamaşa edirlər. Bu sərgilərdə xalq tətbiqi sənət nümunələri ilə yanaşı, bölgə sənətkarlarımızın rəngkarlıq, qrafika, heykəltəraşlıq, ağac üzərində oyma işləri də nümayiş olunur. Təqdim etdiyimiz sərgidə cənub bölgəsinə məxsus olan sənət nümunələri ilə yanaşı, Mahir Həsənovun kibrit çöplərindən hazırladığı məşhur "Eyfel" qülləsinin maketi də tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb".

Bərdə Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Validə Nabatova da festivalın əhəmiyyətini yüksək qiymətləndirib: "Yaradıcılıq festivalının demək olar ki, bütün tədbirlərində iştirak etmişəm. Bu festival insanları bir-birinə daha da yaxınlaşdırır. Festival bölgələr arasında mədəni əlaqələrin genişləndirilməsi, sənət mübadiləsi, həmçinin bədii özfəaliyyət kollektivlərinin inkişaf etdirilməsi baxımından çox böyük əhəmiyyətə malikdir".

Şəkinin tanınmış təkəlduz ustası Vəfa Mustafayeva da festivala əliboş gəlməyib. Onun əl işləri, xüsusilə də təkəlduz sənətinə gətirdiyi yeni üslub - kukla sənəti ilə bədii tikmənin sintezi tamaşaçıların böyük marağına səbəb olub. Sənətkar deyib: "Adətən sənətsevərlər incəsənət əsərlərini seyr etmək üçün sərgi salonlarına, muzeylərə gedirlər. Onların çoxunun bəzən buna imkanları olmur. "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının ən böyük özəlliyi odur ki, bu dəfə biz sənətkarlar öz əl işlərimizlə sənətsevərlərin görüşünə gedirik. Bugünkü sərgidə insanlar təkəlduz işləri ilə, xüsusilə kukladan hazırladığım əsərlərlə çox maraqlanırlar. Hətta məndən soruşurlar ki, nəyə görə kuklaların sırf şəkililərə məxsus cizgiləri, mimikaları var. Deyirəm ki, əlbəttə, elə də olmalıdır. Axı mən şəkiliyəm".

# Separatçı rejimin sərsəm bəyanatları Azərbaycanı hərəkətə keçməyə məcbur edə bilər

**Azərbaycanın nəinki hərbi, bütün sahələrdəki inkişafı işğalçı Ermənistanda, eləcə də zəbt etdiyi Dağlıq Qarabağda separatçı rejimin "yuxusunu qaçırıb". Qondarma DQR-in "müdafiə naziri" Levon Mnatsakanyanın Mingəçevir SES-in vurulacaq hədəflər sırasına daxil edildiyi barədə sərsəm bəyanatları da məhz buradan irəli gəlir.**

Azərbaycan tərəfi hələ ki bu sərsəm, Ermənistanın daxili vəziyyətinə hesablanmış çıxışlara bəyanatla cavab verib. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bu günlərdə verdiyi bəyanatda deyilir ki, son günlər Ermənistan mətbuatının təhlilinə əsasən həmin ölkənin hərbi-siyasi rəhbərliyi və Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrinin bir-birindən sərsəm bəyanatlar səsləndirmələri onların ciddi narahatlıq keçirmələrinə, qorxu və təşviş içində olmalarına sübutdur: "Ordumuzun sərəncamında olan və dağıdıcı qüvvəyə malik ən müasir silah sistemləri düşmənin bütün vacib hərbi obyektlərini və strateji kommunikasiya xətlərini qısa müddət ərzində məhv etməyə qadirdir. Levon Mnatsakanyanın budəfəki absurd bəyanatına gəlincə, Azərbaycan hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri ölkənin bütün hava məkanının, o cümlədən xüsusi əhəmiyyətli dövlət və hərbi obyektlərin təhlükəsizliyini tam təmin edir. Düşmən tərəf bu kimi məsuliyyətsiz bəyanatlar səsləndirməzdən əvvəl düşünməlidir ki, Ermənistanın ərazisində elə obyektlər var ki, onlara zərbə endirsək, həmin ərazilərdə yüzillərlə yaşayış mövcud olmayacaq".

Ermənistanın müdafiə naziri David Tonoyanın ardınca qondarma DQR-in "müdafiə naziri" də Azərbaycanı müharibə və "Mingəçevirin vurulması" ilə hədələyib. Levon Mnatsakanyan isə Xankəndidə jurnalistlərin qarşısına çıxaraq təmas xəttində hökm sürən "təəccüblü sakitlikdən", payızda vəziyyətin gərginləşə biləcəyindən və irimiqyaslı hərbi əməliyyatların başlayacağı təqdirdə "Azərbaycanın iqtisadiyyatını iflic etmək" planlarından bəhs edib.

Mnatsakanyan deyib ki, "əgər zərurət yaranarsa", Dağlıq Qarabağın "müdafiə ordusu" Mingəçevir SES-ə raket zərbəsi endirəcək. Onun sözlərinə görə, Mingəçevir SES hədəf kimi erməni ordusunun taktiki planlarına daxil edilib: "Hərb elmi bu və buna bənzər obyektlərə zərbə endirilməsini tələb edir. Belə zərbə iqtisadiyyata zərər vuracaq və düşmənin silahlı qüvvələrini müvafiq resurslarla təchiz etmək imkanlarını aradan qaldıracaq. Bu obyekt bizim planlarımıza daxildir".

Mnatsakanyan əlavə edib ki, hər şey belə zərurətin yaranmasından asılıdır. Qondarma "nazir" deyib ki, Azərbaycanın "LORA", "Polonez", "Dana" kimi yeni raket-artilleriya sistemləri nümayiş etdirməsi onları qorxutmur. Çünki ermənilərin əlində də "oxşar silahlar" var. Üstəlik, bu silahlar "daha dəqiqdir".

Təcavüzkar Ermənistanda Mingəçevir SES-i vurmaq barədə təhdidlər ilk dəfə deyil səsləndirilir. Belə təhdidlərlə, adətən, ya istefada olan generallar, ya hansısa ekspertlər və siyasətçilər çıxış edirdi. İndi isə Dağlıq Qarabağdakı işğalçı qüvvələrin "naziri" su bəndinin hədəf kimi müəyyən edildiyini bildirir. Şübhəsiz ki, Azərbaycan özünün strateji infrastruktur obyektlərinin, o cümlədən Mingəçevir SES-in su bəndinin potensial hücumlardan müdafiəsi üzərində çoxdandır işləyir, hava və raket hücumlarından bir neçə pilləli müdafiə sistemləri formalaşdırır. Bu sistemlər Ermənistanın sərəncamındakı və Mingəçevirə zərbə endirmək barədə lovğalanmaq üçün istifadə edilən "İsgəndər" raketlərini də dəf etməyə hesablanıb.

Yəqin, Mnatsakanyan yaddan çıxarıb ki, Azərbaycan Ordusunun Naxçıvanda cəmləşdirilmiş Əlahiddə Ümumqoşun Birləşməsi Yerevan və onun yaxınlığındakı Metsamor AES də daxil olmaqla, bütün strateji infrastruktur obyektlərini darmadağın etmək gücündədir.

Ermənistan nə qədər silah alsa belə, Azərbaycanın aldığı silahlarla müqayisə oluna bilməz. Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov bu məsələ ilə bağlı fikirlərini açıqlayarkən bildirib ki, Azərbaycan hər il yüz milyonlarla dollarlıq yeni silahlar alır: "İndi Ermənistan 200 milyonluq silah alsa, nə edəcək? Sadəcə, Nikol Paşinyan Azərbaycan Ordusunun möhtəşəm hərbi paradından sonra ölkə əhalisini sakitləşdirmək, arxayınlaşdırmaq üçün belə yollara əl atır. Azərbaycan Ordusuna hər an torpaqlarımızı azad etməklə bağlı əmr verilə bilər. Biz buna hazırıq və qadirik. Bu baxımdan onların narahatlığına əsaslar var. Ermənilər silahlar alsalar da, Azərbaycan Ordusunun gücü qarşısında tab gətirməyəcəklər. Onlar heç vaxt ordular arasında güc nisbətini bərabərləşdirə bilməyəcəklər".

Bu arada Rusiyanın İrəvana qarşı mövqeyinin dəyişilməsi barədə də informasiyalar yayılmaqdadır. Rəsmi Moskvanın Paşinyan hökumətini cəzalandırmaqda israrlı olduğu vurğulanır. Bildirilir ki, qızmar yay ayları olmasına baxmayaraq, Rusiya ilə Ermənistan arasında "sərin küləklər" əsməkdədir. Bu, xüsusən Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra özünü açıq şəkildə göstərir. Elə baş nazir Nikol Paşinyanın Kremlin ünvanına səsləndirdiyi üstüörtülü bəyanatlar da bunu təsdiqləyə bilər.

Rusiya-Ermənistan münasibətlərində yaranan sərinliyə bir "istilik" qatmaq istəyən qondarma DQR-in separatçı rejiminin "mətbuat katibi" David Babayan media mənsublarına müsahibəsində deyib ki, Rusiya təkcə Qarabağ münaqişəsində eskalasiyanın qarşısının alınmasında deyil, həm də Cənubi Qafqazda sabitliyin qorunub saxlanılmasında mühüm rol oynayır: "Bilirsiniz ki, vətənpərvərlik təkcə sözlərlə ifadə edilmir. Əgər Ermənistanda simvolik olaraq Rusiya bazası olmasa, o zaman siz bizim Türkiyə ilə situasiyamızı təsəvvür edə bilərsinizmi? Biz iki cəbhədə, xüsusən Türkiyə kimi ölkə ilə vuruşa, bu qədər sayda ordunun qabağında dayana bilərikmi? Türkiyənin 85 milyon əhalisi, 700 minlik ordusu var".

Çox güman ki, rəsmi İrəvanda baş verən mövqe dəyişikliyi Moskvanı da öz siyasətini dəyişməyə məcbur edir. Əslində, son zamanlar bəzi nüfuzlu rus politoloqların Ermənistan rəhbərliyini sərt tənqid etməsi fonunda Azərbaycanın ünvanına xoş fikirlər səsləndirmələri də təsadüfi ola bilməz. Bir sıra ekspertlərin də iddia etdiyi kimi, Rusiya rəsmi İrəvanın təzadlı mövqeyindən sonra həqiqətən də Paşinyan hakimiyyətini cəzalandırmaqda israrlıdır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Oxucu məktubları



Əbədiyaşarlıq

## Vətən sənə oğul dedi

Cəbhə bölgəsində doğulub boya-başa çatan, erməni vəhşiliyini həm görüb, həm də eşidənlərdən biri də 1989-cu ildə dünyaya göz açan Nicat Bəhruz oğlu İsgəndərov idi.



Nicatın atası Bəhruz kişi dülgər, anası Maya xanım evdar qadındır. Maya xanım hər dəfə söhbət düşəndə deyir ki, Nicat sanki ömrünün qısa olacağını bilirdi. 27 illik həyatında həm övladlıq borcunu, həm də Vətən qarşısındakı borcunu yerinə yetirmək üçün tələsirdi. Hətta bir neçə günlüyə evə gələndə belə hərbi geyimini əynindən çıxarmaq istəmirdi.

Bu fikirləri cəsur hərbçinin döyüş yoldaşı Emin də təsdiqləyərək dedi ki, Nicat taqım komandiri idi. Yaxşı yadımdadır, 2016-cı il aprel ayının 1-də axşam tərəfi ona zəng gəldi. Bir an içində gözlərində alov parladı. Sifətində həyəcanla bərabər, sevinc hisslərini də gördük. Əvvəlcə elə bildik ki, evdən şad xəbər eşidib. Amma bu başqa xəbər idi. "Döyüşə hazır ol!" tapşırığı.

Nicat can atdığı döyüşdə vətən borcunu şərəflə yerinə yetirdi. Çox təəssüf ki, Tərtərə şəhid kimi döndü.

Ölümündən sonra birinci dərəcəli "İgidliyə görə" medalı ilə təltif edilib. Tərtər şəhərinin mərkəzi küçələrindən birinə adı verilib, barelyefi vurulub.

2016-cı il aprelin 1-dən 2-sinə keçən gecə tərtərlilər də yuxudan top atəşinə oyandılar. Şəhərdə dağıntılar vardı. Hamı evdən çıxıb, bir-birindən xəbər tutur, vəziyyəti öyrənməyə çalışırdı.

Beləcə, nigarançılıq içində səhər açıldı. Amma bu səhər xalqımıza nigarançılıqdan daha çox sevinc gətirdi. "Qələbə" sözü dildən-dilə gəzdi. Təhlükə, həyəcan hissləri yoxa çəkildi. İnsanlar erməni istehkamlarının darmadağın edilməsi, qoşunlarımızın irəliləməsi xəbərini bir-birinə çatdırır, sevinclərini gizlədə bilmirdilər.

Xalqımız şəhid ailələrini tək qoymurdu. Elə həmin aprel günlərində Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın adından Heydər məscidində aprel şəhidlərinin ruhuna ehsan verildi. Bu, sadəcə ehsan deyildi. Bu, bir ananın, böyük qəlb sahibinin yaralı ürəkləri ovundurması idi. O anlarda şəhid anaları, bacıları, həyat yoldaşları hiss etdilər ki, bizim Vətənimiz bir, torpağımız bir olduğu kimi, dərdimiz də birdir. Bu dərdi qürurla çəkməliyik.

Görüşdə Nicat İsgəndərovun anası Maya xanım da iştirak edirdi. Maya xanım o günləri belə xatırlayır:

- Mehriban xanım hər birimizlə ayrı-ayrılıqda görüşdü, təsəlli verdi. Onun ürək sözləri qəlblərimizə məlhəm oldu. Bu mərasim bizi doğmalaşdırdı, sanki bir ailə olduq.

Aprel şəhidlərinin şərəfinə Horadizdə əzəmətli abidə ucaldılıb. Hər il aprel ayında burada böyük tədbir keçirilir. Nicatın valideynləri də mərasimdə iştirak edir, onun döyüş yoldaşları, digər şəhid ailələrinin üzvləri ilə görüşürlər. Maya ana deyir ki, builki görüşdə Lələtəpəyə Azərbaycan bayrağını sancan general Mais Bərxudarov özü bizi qəbul elədi, bildirdi ki, belə igid oğulların sayəsində indi Cocuq Mərcanlıda rahat yaşayan sakinlər kənddə qəhrəmanların abidəsinin ucaldılmasını istəyirlər.

Lələtəpəyə gedən yol... İgidlik, qəhrəmanlıq yolu. Qisas yolu. Hələ başa çatmayan arzuların yolu. İndi bu yola həsrətlə dikilən gözlərdə ağrı, kədərlə yanaşı, qurur var, nikbinlik var. Bu əhval-ruhiyyəni doğuran ölkə rəhbərinin həyata keçirdiyi siyasət sayəsində 100 illiyini qeyd etdiyimiz Azərbaycan Ordusunun gündən-günə artan qüdrətidir. Bəhruz ata, Maya ana əmindirlər ki, bir zaman Lələtəpə fatehlərinin başa çatdıra bilmədikləri işi Azərbaycan Ordusu başa çatdıracaq və bir qarış torpağımız belə işğal altında qalmayacaq.

***Svetlana BAĞIROVA,***
***Tərtər şəhəri***

İdman

## Silinməz izlər

Qalib idmançıların yaddaqalan xoş anları da çox olur, xatirələri də. İbad Rzazadə də belələrindəndir. O, 1993-cü ildə Qobustan şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 2000-ci ildə cüdo idman növü ilə məşqlərə başlasa da, sonradan Şərq əlbəyaxa döyüş növlərinə üstünlük verib. Ciu-citsu, karate-do, kikboksinq, kiokushinkaykan karate, qocyu-ryu, Kempo-ryu və Kobudo döyüş növləri ilə məşğul olub.



Bu illər ərzində 11 dəfə Azərbaycan, 3 dəfət dünya və Avropa çempionu adını qazanmış, 2 dəfə beynəlxalq turnirdə qalib gəlmişdir. Bu yaxınlarda Ukraynanın Xarkov şəhərində keçirilən İRİQUMİ-GO versiyası üzrə dünya çempionatından da qalib qayıdıb.

İbad Rzazadədən "Bu qələbələrin hansı daha çox yadında qalıb?" soruşduqda dedi ki, belə anlar, yaddaqalan günlər çox olub. Amma yaddaşımda Qobustanda I Avropa Oyunlarının məşəlini alovlandırdığım gün qalıb. O gün təkcə mənim yox, bütün qobustanlıların xatirəsində silinməz izlər buraxdı.

Onun yetirməsi, Qobustan şəhər A.O.Çernyayevski adına 1 saylı tam orta məktəbin 7-ci sinif şagirdi Rəvan Əkbərli də rayonun perspektivli idmançılarındandır. O da müəllimi kimi 7 yaşından cüdo idman növü ilə məşğul olmağa başlayıb. Şərq əlbəyaxa döyüş növlərinə də həvəs göstərərək idmanın qocyu-ryu, okinava karate-do, kempo-ryu və kobudo döyüş növləri üzrə məşqlərini davam etdirib. O, 6 dəfə Azərbaycan Avroasiya, 2 dəfə dünya çempionatının mükafatçısı olmağı bacarıb. 2016-cı ildə Ukrayna Respublikasının Xarkov şəhərində keçirilən dünya çempionatında 3-cü yeri tutub. Növbəti uğuru isə bu yaxınlarda məşqçisi İbad Rzazadə ilə qatıldığı dünya çempionatında İriqumi-go versiyası üzrə gümüş medalın mükafatçısı olmasıdır.

Rəvanın məşqçisi deyir ki, biz ona böyük ümidlər bəsləyirik. İnanırıq ki, o, dünya miqyaslı yarışlarda uğurlar qazanacaq, üçrəngli bayrağımızı yüksəklərə qaldıracaq, himnimizi səsləndirəcəkdir.

***Anar ƏLİYEV,***
***Qobustan şəhər sakini***

Qayğı

## Gələcəyi belə düşünərlər

Rayonumuzda körpələrin sağlam böyüməleri və hərtərəfli inkişafı üçün çoxsaylı tədbirlər həyata keçirilir. İlk növbədə, əsas diqqət məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin yenidən qurulub, avadanlıqlarla təminatına yönəldilir.

Son 3 ildə bu məqsədlə həm rayon mərkəzində, həm də kəndlərdə onlarca yeni körpələr evi-uşaq bağçası tikilmiş, köhnələri əsaslı şəkildə təmir edilmişdir. Bu yaxınlarda isə Qazax şəhərində yüz yerlik bir, Daş Salahlı kəndində 2 körpələr evi-uşaq bağçası müasir görkəmdə öz qapılarını uşaqların üzünə açmışdır.

Bunu bizim Xanlıqlar kəndindəki körpələr evi-uşaq bağçasının əsaslı təmirdən sonra istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə eşitdim. Açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatı Ülviyyə Ağayeva və rayon ictimaiyyəti nümayəndələri də iştirak edirdilər. Çıxışlardan o da bəlli oldu ki, rayonda uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində belə tədbirlər davam etdiriləcəkdir.

Sonra bağçaya baxış keçirildi. Mən də tədbir iştirakçılarına qoşulub görülən işlərlə tanış oldum. Ürəyim dağa döndü, rahatlıq tapdım. Axı, mənim də oğlum burada tərbiyə alacaq. İndi övladlarını bu bağçaya gətirən digər valideynlər də arxayındırlar ki, uşaqları vaxtlarını burada şən keçirəcəklər. Biz övladlarımızın gələcəyini düşünərək onlara yüksək səviyyədə təlim-tərbiyə verilməsi üçün lazımi şərait yaradanlara dərin minnətdarlığımızı bildiririk.

***Xatın HÜSEYNXANOVA,***
***Qazax rayonunun***
***Xanlıqlar kəndinin sakini***

Bədii qiraət

## Hədiyyə kitablarının sayı artır

Bir vaxtlar "Ən yaxşı hədiyyə kitabdır", "Kitab bilik mənbəyidir" sözləri tez-tez işlənərdi. Maraqlı kitablar əldən-ələ gəzər, tapa bilməyənlər tanış-bilişdən götürüb oxuyardılar. Çapdan çıxan hər təzə kitab hadisəyə çevrilərdi. O illərin gəncləri yaşa dolandan sonra da kitab oxumağa üstünlük verirlər.

Lerik Ağsaqqallar Şurası bu cəhəti diqqətdə saxlayaraq üzvlərinin mütaliəsi üçün yaxşı şərait yaradıb. Bundan əlavə, şurada yeni nəşrlərin təqdimatları, yazarlarla görüşlər keçirilir, poeziya nümunələrindən lent yazıları dinlənilir, fikir mübadiləsi aparılır. Rayon Ağsaqqallar Şurasının kitab rəflərində 350 nüsxəyə yaxın hədiyyə nəşrlər də var. Buna Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin göndərdiyi islama dair nəşrləri, akademik İsa Həbibbəylinin kitablarını, xalq yazıçısı Zəlimxan Yaqubun 13 cildliyini, yazıçı-dramaturq Hüseynbala Mirələmovun roman və povestlərini, Qulammirzə Təbrizinin bağışladığı "Şeirlər toplusu"nu misal göstərmək olar.

Bu günlərdə Lerik ağsaqqalları Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri, əməkdar incəsənət xadimi Kəmalə Ağayevadan da 10 kitab hədiyyə almışlar. K.Ağayeva istedadlı tərcüməçi kimi də tanınır. Rus, ukrayna, fransız, özbək, türkmən yazıçılarının şeirlərini dilimizə çevirmişdir.

Kəmalə xanımın göndərdiyi kitablar arasında "Məshəti" pyesi, "Könül verdiyim ellər", "Apardı sellər Saranı", "Ay-ulduzlu gülüstanım", "Vətənə sevdalıyam", "Bir gül kimi", "Əlixan məhəlləsi", "Nuh diyarının heyranı" kitabları da var.

***Ruslan İSMAYILOĞLU,***
***Lerik şəhəri***

Abadlıq

## Yerüstü piyada keçidi yenidən quruldu

Quba şəhərinin Heydər Əliyev prospektində 2013-cü ildə inşa edilmiş, amma sonradan yararsız hala düşmüş yerüstü piyada keçidi təmir edilərək yenidən istifadəyə verilib.



Müasir üslubda bərpa edilmiş keçidin üstü və sütunları hər cür temperatura davamlı materialla üzlənib, sütunaltı hissələrə mərmər vurulub. Açıla bilən göy rəngli şüşədən ibarət 16 pəncərə salınıb. Yerüstü keçidin daxili və ətrafı işıqlandırma sistemi ilə təchiz edilib və 6 müşahidə kamerası quraşdırılıb. Kameraların hər biri birbaşa rayon polis şöbəsinin rabitə sisteminə qoşulub. Sakinlərin təklifləri nəzərə alınaraq burada keçidin ümumi görünüşünə uyğun dizayn edilmiş və xüsusi monitor yerləşdirilmiş avtobus dayanacağı da qoyulub.

Uzunluğu 42, eni 2,5, hündürlüyü 7 metr olan yerüstü keçid qeyri-adi forması ilə şəhərin ümumi görünüşünə yaraşıq verir. Xüsusilə, axşam saatlarında gecə işıqlandırılması ilə möhtəşəm görünən və təyyarəni xatırladan piyada keçidi sakinlərə və qonaqlara rahatlıq gətirib.

***Akif BƏŞİROV,***
***Quba şəhəri***

Quruculuq

## On dəqiqə hara, bir saat hara



Müstəqilliyin bərpasından sonrakı illərdə Gədəbəy rayonunda da xeyli abadlıq-quruculuq işləri görülüb. Rayonda yaraşıqlı binalar tikilmiş, göz oxşayan park və xiyabanlar salınmış, təzə yollar çəkilmişdir.

Rayon mərkəzini kəndlərlə birləşdirən yollarda aparılan yenidənqurma işləri sakinlərin istehsal etdikləri kənd təsərrüfatı məhsullarını rahat şəkildə digər şəhərlərə aparıb satmağa imkan yaratmışdır. Düzdür, əvvəllər də yollar təmir edilirdi, amma o qədər də səmərəsi olmur, qarlı-şaxtalı günlərdə sıradan çıxırdı.

Dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində bu problem öz həllini tapır. Təkcə onu demək kifayətdir ki, son bir neçə il ərzində ümumi uzunluğu 120 kilometrə yaxın yeni yollar çəkilib ki, bu da rayonun 11 min nəfərdən çox sakininin rayon mərkəzinə və ətraf bölgələrə gediş-gəlişini asanlaşdırıb, Slavyanka-Qoşabulaq-Pərizamanlı yolu yenidən qurulur. Artıq bu yolun 18 kilometr hissəsində torpaq işləri başa çatdırılmışdır. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilən bu işləri ilin sonunadək başa çatdırmaq nəzərdə tutulmuşdur.

Bizim Nəriman kəndi Gədəbəy şəhərindən 21 kilometr məsafədə yerləşir. Kənddən rayon mərkəzinə getmək üçün təxminən bir saat vaxt itiririk. Yol istismara verildikdən sonra bu yolu cəmi 10 dəqiqəyə qət edəcəyik. Biz bu işdə əməyi olan hər kəsə "əlin-qolun var olsun" deyirik.

***Kaman MƏMMƏDOV,***
***Gədəbəy rayonunun Nəriman kəndinin sakini***

## Qəbələ gözəlliklərinin özəlliyi





Yurdumuzun hər guşəsi gözəldir. Üstəlik də bölgələrin, kəndlərin, şəhərlərin gözəlliyi bir-birinə bənzərsizliyi ilə fərqlənir. Şamaxının, Qubanın, Şəkinin, Lənkəranın, Şahdağın, Göygölün, Batabatın... hərəsinin yüz özəlliyi var.

Bura isə Qəbələdir. Hər yanı füsunkar mənzərəli - dağları, meşələri, çayları, şəlalələri, gölləri ilə insana zövq və səfa bəxş edən Qəbələ.

Lakin bu gün Qəbələ təkcə təbii gözəlliklər və tarixi abidələr diyarı deyil, həm də ən müasir turizm infrastrukturuna malik geniş bir məkandır. Bugünkü Qəbələnin bənzərsiz mənzərəsini insanın qurub-tikdiyi əsrarəngiz binalar, hotellər, istirahət mərkəzləri, təbiətin bəxşişləri və tarixin yadigarları birləşərək yaradıblar.



***Foto F.BAĞIROV və***
***A.MƏMMƏDOVUNDUR***

Təbiət və biz

## Hərəsi bir tamaşadır

Lənkəranda az adam tapılar ki, Abbas Abbasovu tanımasın. 72 yaşlı bu nurani kişi 50 ildən çoxdur ki, Liman şəhərindəki həyətyanı sahəsində nəsli kəsilməkdə olan müxtəlif növ quşları bəsləməklə məşğuldur. Onun quş fermasını heyvanat parkına bənzətmək də olar. Burada 100-ə yaxın quş növü var.



"Qırmızı kitab"a düşən quşların, o cümlədən flaminqonun, qırqovulun, mandarinkanın, karalinkanın, sultan toyuğunun, slavyanka qırqovulunun sayı daha çoxdur.





Quşları görmək üçün bura təkcə Lənkərandan və ətraf rayonlardan deyil, respublikanın müxtəlif bölgələrindən qonaqlar, xarici turistlər də gəlirlər. Dünyanın bir sıra ölkəsində, o cümlədən Yaponiya, Kanada, İspaniya, Rusiya, İndoneziyada flora və faunanın mühafizəsi ilə bağlı keçirilən seminar və konfranslarda iştirak edən Abbas kişi söz düşəndə həmin tədbirlərdə gördükləri və eşitdikləri barədə həvəslə danışır.





Quşların saxlanılması şəraitinə xüsusi diqqət göstərir. Gün ərzində 30 kiloqrama yaxın yemdən istifadə edir. Buğda və arpaya qənaət etməkdən ötrü yaz-yay aylarında quşlara daha çox gicitkən verir. Deyir ki, gicitkən bitkisi quş üçün çox xeyirlidir. Tərkibində zəngin minerallar, müxtəlif növ vitaminlər var."

Yaşının çox olmasına baxmayaraq, Abbas Abbasov mini-zoopark yaratmaq fikrinə düşüb.





***Ağaddin BABAYEV,***
***Lənkəran şəhəri***

**Ölkəmizin ən qədim və gözəl şəhərlərindən olan Qəbələ bu yay da musiqi bayramı ab-havasına bürünəcək. Ancaq bu dəfə bayram ovqatı daha da xoş, əlamətdar olacaq. Çünki yalnız bu regionun deyil, ümumilikdə Azərbaycanın klassik musiqi həyatında olduqca mühüm hadisəyə çevrilən Qəbələ Beynəlxalq Musiqi Festivalı özünün 10 illik yubileyini qeyd edəcək. Heydər Əliyev Fondu və "Gilan Holding" tərəfindən təşkil edilən festival Qəbələ şəhərində 30 iyuldan 7 avqustadək keçiriləcək.**




# Tanınmış musiqiçilərin, tamaşaçıların, sənətsevərlərin sevimli görüş yeri

## X Qəbələ Beynəlxalq Musiqi Festivalı keçiriləcək

Qəbələ özündə Azərbaycanın zəngin tarixinin silinməz izlərini yaşadır. Bir zamanların möhtəşəm, artıq əfsanələşmiş Qafqaz Albaniyasının paytaxtı olmuş bu şəhər bir çox ənənələrinə bu gün də sadiqdir. Bura indi də tolerantlıq ənənələrinin qorunub saxlanıldığı, müxtəlif xalqların, fərqli dinlərin nümayəndələrinin əsrlər boyu sülh şəraitində yaşadığı məkandır. Son illər Qəbələ həm də beynəlxalq musiqi və incəsənət festivallarının, konfrans və sərgilərin, idman yarışlarının təşkil olunduğu yer kimi tanınır.

2009-cu ildən başlayaraq hər il Qəbələ şəhərində beynəlxalq musiqi festivalı keçirilir. I Qəbələ Beynəlxalq Musiqi Festivalında dünyanın 16 ölkəsindən - ABŞ, Fransa, İsrail, Meksika, Polşa, Rusiya, İtaliya, İspaniya və digər ölkələrdən gəlmiş tanınmış musiqiçilər iştirak etdilər. Tədbir Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürasının ifası ilə başladı. Beynəlxalq musiqi festivalı çərçivəsində gənc pianoçuların müsabiqəsi də keçirildi. Azərbaycan, Rusiya, Xorvatiya və Yaponiyanı təmsil edən 5 pianoçunun ifasının yekununda Rusiya pianoçusu İlya Maksimov müsabiqənin ən yüksək mükafatını - "Qran-pri"ni qazandı. Finalda mübarizə aparan gənc pianoçular - xorvatiyalı Qoran Filipets, rusiyalı Aleksandr Yakovlev, azərbaycanlı Toğrul Hüseynli və yaponiyalı Şimomura Misako digər mükafatların sahibləri oldular. Eyni zamanda Azərbaycan bəstəkarlarının əsərlərini ən yaxşı ifa etmək nominasiyası üzrə mükafatlara Nərgiz Kəngərli və Nataliya Landfed (ABŞ) layiq görüldülər.

Beləliklə, 2009-cu ildə ilk Qəbələ Beynəlxalq Musiqi Festivalının keçirilməsi ilə milli musiqi mədəniyyəti tariximizdə yeni ənənənin bünövrəsi qoyuldu. O vaxtan bəri hər il keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində gənc pianoçuların beynəlxalq müsabiqəsi, muğam, klassik, kamera, caz, vokal musiqisi konsertləri təşkil olundu. Festivallarda dünyanın bir çox ölkələrindən tanınmış musiqiçilər, dünya şöhrətli simfonik və filarmonik orkestrlər çıxış etdilər.

İldən-ilə böyüyən tamaşaçı auditoriyası və ahəngdar musiqi keyfiyyəti ilə diqqəti çəkən Qəbələ beynəlxalq musiqi festivalları dünyanın bir çox ölkəsindən olan musiqiçini birləşdirdi. Onların arasında yaradıcılıq əlaqələrinin yaranmasına və inkişafına təkan verdi. Azərbaycanın zəngin musiqi mədəniyyətinin dünya ictimaiyyətinə çatdırılmasında, beynəlxalq mədəni əlaqələrin gündən-günə genişləndirilməsində, xalqlar arasında dostluğun möhkəmləndirilməsində bu festival bir çox işlər gördü.

2016-cı ilin 30 iyulundan 5 avqustunadək keçirilən Azərbaycan, Avstriya, Bolqarıstan, Rusiya, Türkiyə, Ukrayna, ABŞ, İtaliya, Fransa, İspaniya, İsrail, Litva və Kubadan olan musiqiçilərin, bədii kollektivlərin, solistlərin, dirijorların iştirak etdikləri VIII Qəbələ Beynəlxalq Musiqi Festivalının açılış mərasiminə ünvanladığı təbrik məktubunda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bildirdiyi kimi, Qəbələ artıq tanınmış musiqiçilərin, tamaşaçıların, sənətsevərlərin sevimli görüş yeridir.

Ötən il IX Qəbələ Beynəlxalq Musiqi Festivalı da möhtəşəmliyi ilə unudulmaz oldu. Açılış mərasimi iyulun 30-da keçirilən tədbirdə Mehriban xanım Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxundu. Məktubda qeyd olunurdu: "Əsrlər boyu sivilizasiyalararası dialoqun inkişafına öz töhfəsini verən Azərbaycan tarixən xalqlararası birliyin gücləndirilməsinə səy göstərib. Mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran hər bir layihə bizim üçün çox dəyərlidir. Son illər ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycanın təməl prinsiplərinin sülh və humanizm olduğunu bir daha sübut edərək dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün xalqların nümayəndələrini bir araya toplayır.

Fərəhləndirici haldır ki, nüfuzu ildən-ilə artmaqda olan Qəbələ Beynəlxalq Musiqi Festivalı mədəniyyətlərarası dialoqa böyük töhfə verən əhəmiyyətli bir tədbir kimi tanınmaqdadır. Ayrı-ayrı ölkələrdən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı Azərbaycanın dünyada multikulturalizm və tolerantlığın uğurlu modellərindən biri kimi tanıdılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq, sivilizasiyalararası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir".

Qeyd edək ki, yalnız tarixinin qədimliyi ilə deyil, əsrarəngiz təbiəti ilə də görənləri heyran edən bu məkanda, sıx meşə örtüyünə bürünmüş dağların əhatəsində düzənlənən festivalın seçildiyi yer həm klassik musiqi həvəskarları, həm də şəhərin qızmar, yorucu istisindən dincəlmək, bütün həftəni təmiz havada keçirmək istəyənlər üçün olduqca uğurludur. Ənənəvi olaraq hər il yay aylarında təşkil edilən festivalda musiqiçilər açıq səma altında çıxış edirlər.

Yubiley ilində düzənlənəcək X Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi 31 iyulda baş tutacaq. Festivalda Azərbaycandan və xarici ölkələrdən görkəmli musiqiçilərin, solistlərin, dirijorların iştirakı nəzərdə tutulur.

Tədbirdə Rusiya, İsrail, ABŞ, İtaliya, Avstriya, İsveçrə, İspaniya və Türkiyədən dünya şöhrətli dirijorlar və musiqiçilər - Oksana Yablonskaya, Dmitri Yablonski, Janna Qandelman, Annel Qreqori, Olqa Yermakova, Eduard Vulfson, Nora Romanov-Şvartsberq, Tomer Lev, Mine Kurtoğlu, Mixail Xoxlov, Salvador Brotons və başqaları iştirak edəcəklər.

Festival çərçivəsində keçirilən konsertlərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Baku Chamber Orchestra" Gənclər Kamera Orkestri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestri, "Qaytağı" ansamblı, "Clarte" klarnet kvarteti, "Furioso" kvarteti, Yerusəlim Simfonik Orkestri, "Jovenes Clasicos del Son" instrumental qrupu (Kuba), "Tbilisi Big Band" orkestri (Gürcüstan), "Gypsy Band" (Budapeşt), xalq artistləri Fərhad Bədəlbəyli, Murad Adıgözəlzadə, Yeganə Axundova, Şükür Səmədov, Ənvər Sadıqov, Samir Cəfərov, əməkdar artistlər Fuad İbrahimov, Aleksey Miltıx, Sahib Paşazadə, Çinarə Heydərova, Emil Əfrasiyab, beynəlxalq müsabiqələr laureatları Səidə Tağızadə, Nərmin Nəcəfli, Cavad Tağızadə, Məhərrəm Hüseynov, Mahir Tağızadə, Taleh Yahyayev, Ziba Rəcəbli, Toğrul Hüseynli, Vurğun Vəkilov, istedadlı gənc solistlər, muğam ifaçıları və başqaları çıxış edəcəklər.

Bu möhtəşəm beynəlxalq tədbirdə həmçinin xalq artisti, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru Murad Adıgözəlzadə tərəfindən təşkil olunan və xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli tərəfindən dəstəklənən "Gənclərə dəstək" layihəsinin iştirakçıları, istedadlı musiqiçilər konsert proqramı ilə səhnə alacaqlar.

X Qəbələ Beynəlxalq Musiqi Festivalı daha bir əlamətdar hadisə ilə yadda qalacaq. Bu il - Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyinin qeyd olunduğu ildə düzənlənən tədbirdə görkəmli sənətkar yad ediləcək. Festival çərçivəsində bəstəkarın ölməz əsərləri səsləndiriləcək.

Hər kəsin iştirak etməyə dəvətli olduğu, maraqlı, rəngarəng proqrama malik bu möhtəşəm musiqi bayramı qonaqların yaddaşında, Azərbaycan musiqi mədəniyyəti tarixində mənalı səhifələrdən biri kimi qalacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Bu, Ağgöldür







Yurdumuzun bir sıra gölləri adını təbiətin rənglərindən alıb. Göygöl, Qaragöl, Böyük Alagöl, Sarısu gölü... Bu isə Ağgöldür.

Ağgöl çöl-göl ekosistemi kimi tanınır. Onun ətrafı köçəri və yerli quşların, eləcə də bir sıra heyvanların məskunlaşdığı ərazidir.

Ağcabədi rayonunun ərazisində yerləşən Ağgöl o qədər də böyük deyil. Bununla belə, onun qorunması mühüm əhəmiyyət daşıyır. Çünki burada adları Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahısı"na və Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş quşlar məskunlaşıb.

Bu gölün qorunmasına 1964-cü ildən başlanıb. O vaxt yaradılmış Ağgöl Dövlət Təbiət Yasaqlığı 40 il əvvəl eyniadlı dövlət qoruğuna çevrilib. 2003-cü il iyulun 5-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə qoruğun sahəsi artırılıb və ərazi milli park elan olunub. Milli park Ağcabədi və Beyləqan rayonlarının inzibati ərazisində 18 min hektara yaxın sahəni əhatə edir.

Yay aylarında Ağgölün suyu bir qədər azalır. Lakin göl özünəməxsus gözəlliyini həmişə qoruyub saxlayır.

***"Azərbaycan"***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Koçaryan həbsxanaya göndərildi





Yerevanın birinci instansiya məhkəməsi Ermənistanın eks-prezidenti Robert Koçaryanın iki aylıq həbsi barədə qərar çıxarmışdır. Bu barədə tert.am saytı xəbər verir.

Bundan əvvəl Ermənistanın xüsusi istintaq xidməti Koçaryanı on il öncə konstitusion quruluşun devrilməsində ittiham etmişdi. O, məhkəmə binasından həbsxanaya göndərilmişdir.

Koçaryan ittihamlarla razılaşmayaraq bildirmişdir ki, onu növbədənkənar parlament seçkilərinə buraxmaq istəmirlər: "Bu, siyasi təqibdir. Düşünmürdüm ki, müasir zamanda ittihamları bu cür saxtalaşdırmaq olar".

2008-ci il martın 1-də Serj Sarkisyanın qalib gəldiyi prezident seçkilərinin nəticələrinə etiraz edən çoxminlik aksiyanın iştirakçıları odlu silah gücünə dağıdılmışdı. Toqquşmalar nəticəsində 10 nəfər həlak olmuş, 250 nəfərdən çox adam yaralanmışdı.

Xatırladaq ki, Robert Koçaryan 1998-2008-ci illərdə Ermənistan prezidenti vəzifəsini tutmuşdur.

Eyni iş üzrə ittiham olunan KTMT-nin baş katibi Yuri Xaçaturov 5 milyon dram (təxminən 10400 ABŞ dolları) girov müqabilində azadlığa buraxılmışdır.

## Sipras faciəyə görə məsuliyyəti üzərinə götürdü



Yunanıstanın Baş naziri Aleksis Sipras ölkənin xeyli hissəsini bürümüş meşə yanğınları ilə bağlı baş vermiş faciəyə görə siyasi məsuliyyəti öz üzərinə götürmüşdür. O, hökumətin təcili iclasında bildirmişdir ki, qurbanlar "ədalətsiz və ağlasığmaz" yolla həyatlarından məhrum olmuşlar və "biz məsuliyyəti üzərimizdən atmağa cəhd etməyəcəyik". Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Bundan əvvəl ekspertlər bildirmişdilər ki, Yunanıstanda bir çox evlər meşələrin yaxınlığında inşa olunmuşdur. Evlərin yanında yanğın briqadalarının gəlməsi üçün yollar salınmamışdır.

Sipras kütləvi şəkildə qanunsuz tikililər faktını etiraf edərək vurğulamışdır ki, Yunanıstan hökuməti ölkədə bir çox pozuntunun baş verdiyini "dərin hüznlə" nəzərə almalıdır.

Son məlumata görə, yanğın qurbanlarının sayı artıq 87 nəfərə çatmışdır.

"Frans Press" agentliyi xəbər verir ki, Avropa ərazisində heç bir yanğında bu qədər adam həlak olmamışdır.

Xatırladaq ki, Yunanıstanda meşə yanğınları iyulun 23-də paytaxtın ətrafında və sahilyanı zonada turistlər arasında populyar olan rayonlarda başlamışdır. Afinanın yaxınlığında tüğyan edən yanğınlar iki mindən çox yaşayış evinə ziyan vurmuşdur. "Assoşieyted Press" agentliyinin xəbərinə görə, alov 500 evi və paytaxtın 40 kilometrliyində yerləşən Mati kəndini tamamilə dağıtmışdır.

Bu günlərdə Yunanıstan hökuməti meşə yanğınlarının bilərəkdən törədildiyini bildirmişdir.

## Türkiyə ordusu 44 terrorçunu zərərsizləşdirdi



Türkiyə ordusu son bir həftə ərzində Şırnak, Mərdin, Ərzurum və Bingöl vilayətlərində, habelə İraqın şimalında keçirdiyi antiterror əməliyyatları nəticəsində 44 terrorçunu zərərsizləşdirmişdir. Terrorçuların 30-u xaricdə məhv edilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, əməliyyatlar zamanı 24 tüfəng və tapança, 180 patron, 12 qumbara, 6 top mərmisi, 5 əl qumbarası, 6 maqazin, 18 detonator, 10 mina, 9 kiloqram C-4 partlayıcısı, 2 binokl, 10 kiloqram ammonium nitratı müsadirə olunmuşdur. Bundan əlavə, Türkiyənin təhlükəsizlik qüvvələri 6 əldəqayırma partlayıcı qurğu müsadirə etmişdir.

Əməliyyatlar zamanı 2 hərbi qulluqçu həlak olmuş, 7-si yaralanmışdır.

## Ərəb koalisiyası Yəməni vurdu



Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyası Yəmənin paytaxtı Sənanın beynəlxalq hava limanını və şəhərin şimalında yerləşən Dilmi aviasiya bazasını vurmuşdur. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Hərbi mənbə bildirmişdir ki, bombardman koalisiya aviasiyasının çoxsaylı zərbələri fonunda həyata keçirilir. Son saatlar ərzində Hodeydə, Həccə, Əmran, Səədə və Reymə əyalətlərinə 50-yə yaxın zərbə endirilmişdir. Tələfat və dağıntılar barədə hələ ki məlumat verilmir.

## Cəbəllütariq boğazında 800-ə yaxın miqrant xilas edildi



İspaniya dənizçiləri Aralıq dənizi ilə Avropaya gələn 800-ə yaxın miqrantı xilas etmişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir. Cəbəllütariq boğazında miqrantlarla dolu 54 qayıq aşkar edilmişdir. Qayıqlarda 774 nəfər olmuşdur.

Aralıq dənizi marşrutu miqrantların Avropa İttifaqı ölkələrinə çatması üçün əsas yoldur. Miqyasına görə ikinci tranzit yol isə Balkanlardan keçir.

Beynəlxalq Miqrasiya Təşkilatı qeyd etmişdir ki, cari ilin əvvəlindən bəri Avropaya Aralıq dənizi ilə 55 min nəfərdən çox adam gəlmişdir. Onlardan 23 minini İspaniya, 18 mindən çoxunu İtaliya, təxminən 15 minini isə Yunanıstan qəbul etmişdir.

## Sumqayıtda avtomobil parkında partlayış baş verib, dörd nəfər xəsarət alıb

Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, Sumqayıt şəhərində avtomobil parkının ərazisində partlayış baş verib.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, nəticədə parkın ərazisində bir yük və bir minik avtomobilində yanğın başlayıb. Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğın bölmələri, Sumqayıt Regional Mərkəzinin xilasetmə dəstələri hadisə yerinə cəlb olunub.

İlkin məlumata görə, hadisə nəticəsində yanıq xəsarətləri almış 4 nəfər xilas edilərək aidiyyəti üzrə təhvil verilib. Hazırda yanğınsöndürmə işləri davam etdirilir. Əlavə məlumat veriləcək.

## Atəşkəs rejimi 104 dəfə pozulub

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Məzəm kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altındakı Göyarx, Yarımca, Ağdam rayonunun Nəmirli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Seyidli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları İlahə Kərimovaya anası **BÖYÜKXANIM ALLAHVERDİYEVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8580
Sifariş 2192